AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

14 MART 2019-cu il CÜMƏ AXŞAMI № 59 (6386) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrlərini və İdarə Heyətinin üzvlərini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də VII Qlobal Bakı Forumunun işində iştirak edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri xanım Vayra Vike-Freyberqanı və İsmail Serageldini, keçmiş dövlət və hökumət başçılarını, Mərkəzin İdarə Heyətinin üzvlərini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqa qəbula görə dövlətimizin başçısına minnətdarlığını ifadə edərək ölkəmizə Novruz bayramı ərəfəsində gəlmələrindən və Azərbaycan xalqı tərəfindən onlara göstərilən qonaqpərvərlikdən dərin məmnunluq hissi keçirdiklərini bildirdi. Xanım Vayra Vike-Freyberqa dövlətimizin başçısının Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətinə verdiyi qiyməti yüksək dəyərləndirdi. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətinin genişləndiyini vurğulayan Vayra Vike-Freyberqa Mərkəzin İdarə Heyətinə yeni üzvlərin daxil olduğunu və martın 14-16-da keçiriləcək VII Qlobal Bakı Forumunun işində 50 ölkədən 500-dən artıq nümayəndənin iştirak edəcəyini vurğuladı. Xanım Vayra Vike-Freyberqa bildirdi ki, "Dünyanın yeni xarici siyasəti" mövzusunda təşkil olunacaq bu Forumda 10 müxtəlif sessiya zamanı iştirakçılar tərəfindən qlobal və regional əhəmiyyət daşıyan məsələlər müzakirə ediləcək.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin inkişafından məmnunluğunu bildirən dövlətimizin başçısı Mərkəzin coğrafi əhatə dairəsinin genişlənməsinin, Bakı Forumunun ardınca dünyanın müxtəlif ölkələrində tədbirlər keçirməsinin önəmini qeyd etdi və bunu Nizami Gəncəvi Mərkəzinin artan nüfuzunun göstəricisi kimi dəyərləndirdi. Eyni zamanda, Prezident İlham Əliyev Qlobal Bakı Forumunun dünyada mühüm beynəlxalq platformaya çevrildiyini dedi və Forum çərçivəsində qlobal əhəmiyyət daşıyan məsələlər ətrafında müzakirələr aparılmasının əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin işinə bundan sonra da ölkəmizin dəstək verəcəyini vurğuladı.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin Mərkəzin fəaliyyətinə verdiyi dəstəyə görə qurumun İdarə Heyəti adından dövlətimizin başçısına minnətdarlığını ifadə etdi.

**AZƏRTAC**

## Prezident İlham Əliyev BMT İnkişaf Proqramının nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də BMT İnkişaf Proqramının rəhbərinin müavini, Avropa və MDB üzrə Regional Bürosunun direktoru xanım Miryana Eqqerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı BMT İnkişaf Proqramının ölkəmizdə iyirmi ildən artıq bir dövrdə uğurla fəaliyyət göstərdiyini qeyd edərək, xüsusilə Azərbaycanın müstəqilliyinin ilk illərində bu Proqramın və BMT-nin digər ixtisaslaşmış təsisatlarının ölkəmizə dəstəyinin yüksək qiymətləndirildiyini vurğuladı.

Xanım Miryana Eqqer Azərbaycanın yüksək göstəricili orta gəlirli ölkələr sırasında olduğunu qeyd edərək BMT İnkişaf Proqramının Azərbaycanla əməkdaşlıqdan məmnun olduğunu bildirdi. O, BMT İnkişaf Proqramının iqtisadi şaxələndirmə, xırda və orta sahibkarlığın inkişafı və Azərbaycan üçün prioritet olan digər sahələrdə ölkəmizlə uzunmüddətli tərəfdaşlığa hazır olduğunu dedi.

Görüşdə ölkəmizin beynəlxalq humanitar layihələrə verdiyi töhfənin əhəmiyyəti qeyd olundu, bu sahədə Azərbaycan və BMT İnkişaf Proqramı arasında əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**

## "Çıraqqala" abidəsində möhkəmləndirmə, bərpa-konservasiya işlərinin görülməsi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Şabran rayonunun ərazisində yerləşən, V-VI əsrlərə aid "Çıraqqala" abidəsində möhkəmləndirmə və bərpa-konservasiya işlərinin görülməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.67-ci bəndində göstərilmiş məbləğin 2,0 (iki) milyon manatı Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 13 mart 2019-cu il.**

## Prezident İlham Əliyev Xarici İşlər üzrə Çin Xalq İnstitutunun prezidentini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Xarici İşlər üzrə Çin Xalq İnstitutunun prezidenti, Çin Xalq Respublikasının xarici işlər nazirinin xüsusi köməkçisi Vu Haylonqu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Bakıda keçiriləcək VII Qlobal Forumun əhəmiyyətinə toxunuldu, bu tədbirin beynəlxalq əməkdaşlığın gücləndirilməsi işinə töhfə verdiyi vurğulandı.

Qəbula görə minnətdarlığını bildirən Vu Haylonq Azərbaycana səfərindən və bu tədbirdə iştirakından məmnunluğunu ifadə etdi. O, Çin ilə Azərbaycan arasında dostluq münasibətlərinin mövcud olduğunu qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycan-Çin əlaqələrinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini dedi və əməkdaşlığımızın yeni mərhələyə qədəm qoyduğunu bildirdi. Çinə rəsmi səfərlərini xatırlayan Prezident İlham Əliyev orada Çin Xalq Respublikasının Sədri ilə keçirdiyi görüşlər zamanı iqtisadiyyat, ticarət, infrastruktur, nəqliyyat və digər sahələrdə əlaqələrimizin inkişaf perspektivləri barədə səmərəli müzakirələrin aparıldığını qeyd etdi.

**AZƏRTAC**



## Yaradıcılıq ittifaqları və birliklərinin fəaliyyəti ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasında dövlət və cəmiyyətin inkişafı üçün əhəmiyyət kəsb edən yaradıcılıq ittifaqları və birlikləri milli ədəbiyyatın və ana dilinin inkişafında, xalqımızın zəngin musiqi irsinin dünyada geniş miqyasda tanıdılmasında, teatr, kino və aşıq sənəti ənənələrinin qorunub saxlanılması və təbliğində fəal iştirak edir.

Ölkənin mədəni həyatında və ədəbi-ictimai fikrin formalaşmasında, habelə Azərbaycanda mədəniyyətin, incəsənətin təbliğində, memarlığın inkişafında yaradıcı kollektivlərin rolu əvəzsizdir.

Azərbaycan yaradıcılıq ittifaqları və birliklərinin müraciətlərini nəzərə alaraq, onların fəaliyyətinə dövlət qayğısının daha da artırılması məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Yazıçılar Birliyinə 800 (səkkiz yüz) min manat, Azərbaycan Bəstəkarlar İttifaqına 650 (altı yüz əlli) min manat, Azərbaycan Rəssamlar İttifaqına 350 (üç yüz əlli) min manat, Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqına 300 (üç yüz) min manat, Azərbaycan Memarlar İttifaqına 250 (iki yüz əlli) min manat, Azərbaycan Teatr Xadimləri İttifaqına 250 (iki yüz əlli) min manat və Azərbaycan Aşıqlar Birliyinə 250 (iki yüz əlli) min manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 13 mart 2019-cu il.**

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında əmək, məşğulluq və sosial müdafiə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında əmək, məşğulluq və sosial müdafiə sahəsində əməkdaşlıq haqqında 2018-ci il noyabrın 19-da Minsk şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Belarus Respublikası Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 1 mart 2019-cu il.**

## Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Belarus Respublikasının Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Belarus Respublikasının Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında 2018-ci il noyabrın 19-da Minsk şəhərində imzalanmış Saziş təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Belarus Respublikası Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 1 mart 2019-cu il.**

*Miryana Eqqer:*

# BMT Azərbaycanla əməkdaşlığın inkişafına xüsusi önəm verir

**Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov martın 13-də BMT İnkişaf Proqramının rəhbərinin müavini, Avropa və MDB üzrə Regional Bürosunun direktoru xanım Miryana Eqqer ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini Azərbaycanın indiyədək BMT-nin İnkişaf Proqramı ilə birgə onlarla layihə həyata keçirdiyini söyləyib. Hazırda ölkəmizdə BMT-nin İnkişaf Proqramının səhiyyə, əmək və əhalinin sosial müdafiəsi sahələrini əhatə edən layihələri reallaşır. Bu layihələrin həyata keçirilməsi Azərbaycanda uğurla reallaşan bir çox islahatların nəticələrinin müsbət olmasına öz təsirini göstərir.

BMT İnkişaf Proqramının rəhbərinin müavini, Avropa və MDB üzrə Regional Bürosunun direktoru Miryana Eqqer BMT-nin Azərbaycanla əməkdaşlığın inkişafına xüsusi önəm verdiyini deyib.



Miryana Eqqer Azərbaycana ilk səfəri çərçivəsində tərəflər arasında strateji əməkdaşlığın daha da dərinləşdirilməsi istiqamətində fikir mübadilələri aparmaqda maraqlı olduğunu qeyd edib.

**AZƏRTAC**

# Müdafiə naziri ön xətt bölmələrində olub

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, keçirilən genişmiqyaslı təlimlərə rəhbərlik edən müdafiə naziri, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti ön xətt bölmələrində olublar.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazirə əməliyyat şəraitinin vəziyyəti barədə məruzə edilib. General-polkovnik Z.Həsənov üzbəüz yerləşən düşmən mövqelərini müşahidə edib və bölmələrin daim döyüşə hazır vəziyyətdə olmasını təmin etmək məqsədilə müvafiq tapşırıqlar verib.

Bölmələrdəki şəraitlə tanış olan müdafiə naziri şəxsi heyət üçün yeni tikilən əsgər yataqxanası, silah otağı, ideoloji otaq, yeməkxana, məişət otağı, hamam, əşya anbarı, eləcə də digər xidməti obyektlərdən ibarət olan yaşayış kompleksinin açılışında iştirak edib.



Görülən işlərlə maraqlanan general-polkovnik Z.Həsənov hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində tədbirlərin dövlətimizin diqqət və qayğısı sayəsində daim davam etdirildiyini xüsusi vurğulayıb.

Müdafiə naziri xidmətdə fərqlənən hərbi qulluqçuları mükafatlandırıb və şəxsi heyətlə çay süfrəsi arxasında söhbət aparıb.

Sonra nazir cəbhəboyu zonada yerləşən kəndlərdən birində yerli sakinlərlə görüşərək əhalinin təhlükəsizliyinin təmin olunması məqsədilə yaşayış məntəqələrimizin müdafiəsi barədə söhbət edib.

**AZƏRTAC**

# Müdafiə naziri səhra şəraitində ərazidə yaradılmış təlimin komanda idarəetmə məntəqəsində olub



**Azərbaycan Ordusunun genişmiqyaslı təlimlərinin növbəti mərhələsində qərargahlarda tapşırıqlar aydınlaşdırılıb, vəziyyət qiymətləndirilib, qərarlar qəbul edilib və qoşunlara tapşırıqlar verilib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səhra şəraitində ərazidə yaradılmış təlimin komanda idarəetmə məntəqəsində olan general-polkovnik Zakir Həsənov qoşunların döyüş fəaliyyətinin təşkilini yoxlayıb.

Təlim nöqtələrinə baş çəkən müdafiə naziri döyüş texnikaları, silah-sursat və şəxsi heyətin təlimlərdə iştirakı, eləcə də tapşırıq və sərəncamların dəqiq çatdırılması, icra olunması ilə bağlı müvafiq göstərişlər verib.

**AZƏRTAC**



# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Roma Papası Fransiskə təbrik məktubu ünvanlayıb

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Roma Papası Fransisk Həzrətlərinə Tacqoyma Gününün ildönümü münasibətilə təbrik məktubu göndərib.**

AZƏRTAC xəbər verir ki, məktubda Müqəddəs Taxt-Tac ilə Azərbaycan arasında əlaqələrin yüksək səviyyədə olması vurğulanır, ikitərəfli əməkdaşlığın dinlərarası və mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə, ümumdünya mədəni irsinin qorunmasına gələcəkdə də böyük töhfələr verəcəyinə ümid ifadə edilir.

**AZƏRTAC**



# Bakıda VI Regional İnternet İdarəçilik Forumu keçirilib






**Martın 11-dən 15-dək Azərbaycanda ilk dəfə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən keçirilən beynəlxalq "Kibertəhlükəsizlik həftəsi" çərçivəsində BMT İnkişaf Proqramı (BMTİP) ilə birgə martın 13-də Bakıda VI Regional İnternet İdarəçilik Forumu (RİİF) keçirilib.**

AZƏRTAC xəbər verir ki, builki forum "Kibertəhlükəsizlik: bizim ortaq məsuliyyətimiz" mövzusuna həsr olunub.

Forumun açılışından əvvəl nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə, BMT İnkişaf Proqramının rəhbərinin müavini, Avropa və MDB üzrə Regional Bürosunun direktoru xanım Miryana Eqqer, Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) MDB ölkələri üzrə regional bölməsinin rəhbəri Kiril Oparin kibertəhlükəsizlik sahəsində həllər təklif edən yerli, eləcə də beynəlxalq şirkətlərin məhsul və xidmətlərinin nümayiş olunduğu "Cyber Village" sərgisinə baxış keçiriblər. Azərbaycan İnternet İdarəçilik Forumunun aktiv iştirakçısı və təşkilatçısıdır. 2012-ci ildə Bakıda VII İnternet İdarəçilik Forumunun təşkil edilməsi ilə yanaşı, ölkəmizdə hər il Regional İnternet İdarəçilik Forumu keçirilməkdədir.

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə bildirib ki, forumun məqsədi daha səmərəli, effektli regional iqtisadi inkişafa və mədəni irəliləyişə nail olmaq üçün internetin tətbiqinin müxtəlif yollarını nümayiş etdirməkdir: "Forum yerli iştirakçıların beynəlxalq mütəxəssislərlə təcrübə mübadiləsi və əməkdaşlıq qurması, bu sahədə mövcud vəziyyətin, qarşıya qoyulmuş vəzifələrin, müvafiq xarici strukturlara inteqrasiya məsələlərinin birgə müzakirəsi və maraqlı innovativ layihələrin nümayişi üçün platformadır".

R.Quluzadə deyib ki, 20 ilə yaxındır ki, Azərbaycan Hökuməti BMT İnkişaf Proqramı ilə əməkdaşlıq edir. Qurum informasiya-kommunikasiya texnologiyaları sahəsində bir çox layihələrə dəstək verir: "Ümummilli lider Heydər Əliyev tərəfindən 2003-cü ildə təsdiq edilmiş "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012)" məhz BMT İnkişaf Proqramı ilə birgə layihə çərçivəsində hazırlanıb. Həmçinin ölkəmiz üçün mühüm əhəmiyyət daşıyan "AzDatacom" şəbəkəsi, regionda ilk "TİER-3" səviyyəli DATA-mərkəzin qurulması birgə fəaliyyətin nəticəsidir. Bu layihələr ölkəmizdə dayanıqlı inkişafa böyük töhfə verib. Bu gün də BMT İnkişaf Proqramı ilə əməkdaşlığımız davam edir. Birgə əməkdaşlıq çərçivəsində hazırlanmış "Bilik İqtisadiyyatı - Azərbaycanın İnnovasiya Yol Xəritəsi" bizim üçün çox önəmlidir. Bu layihə çərçivəsində keçirilən "İdeyadan Biznesə" startap turları və məktəblərdə robototexnika laboratoriyalarının qurulması üzrə tərəfdaşlığımızdan məmnunuq".

Azərbaycanın Beynəlxalq Telekommunikasiya İttifaqı ilə əməkdaşlığına da toxunan nazir ötən il təşkilatın səlahiyyətli konfransında keçirilmiş seçkilərdə ölkəmizin BTİ-nin Şurasına yenidən, Radiotənzimləmə Bürosuna isə ilk dəfə üzv seçildiyini xatırladıb: "Keçən il Beynəlxalq Telekommunikasiya İttifaqının regional ofisinin dəstəyi ilə regionda ilk dəfə "Kibertəhlükəsizlik təlimləri" keçirilib, 14 ölkə nümayəndəsi iştirak edib. Hər iki təşkilatın fəaliyyəti bu gün keçirilən forumun mövzusu ilə bilavasitə bağlıdır. 2006-cı ildən keçirilən Qlobal İnternet İdarəçilik Forumları məhz Beynəlxalq Telekommunikasiya İttifaqının təşəbbüsüdür".

R.Quluzadə forumun "Kibertəhlükəsizlik həftəsi"nin əsas tədbiri seçilməsinin təsadüfi olmadığını qeyd edib. Bildirib ki, müasir texnologiyalar, internet hazırda insanların, cəmiyyətin, dövlətin inkişafında əvəzedilməz rola malikdir: "Onlar təhsilə, səhiyyəyə, ticarətə, mediaya, məşğulluğa və bir çox digər sahələrdə inkişaf üçün yeni imkanlar yaradıb. İnternet tətbiqləri, sosial şəbəkələr insanlar üçün müasir ünsiyyət formasına çevrilib. İnternet sayəsində açıq və şəffaf idarəetmə sistemi formalaşıb, vətəndaş-dövlət münasibətləri yeni məzmun alıb. Lakin, eyni zamanda, bu inkişaf dünyada kibertəhlükəsizliklə bağlı ciddi problemlər də yaradıb. Yeni texnoloji cinayət növləri meydana çıxıb, onların təsir coğrafiyası və əhatə dairəsi genişlənib. Kibercinayətlərin sayı da ildən-ilə artmaqdadır".

Nazir ölkəmizdə texnoloji inkişafla yanaşı, kibertəhlükəsizlik məsələlərinin də diqqət mərkəzində olduğunu vurğulayıb. Qeyd edib ki, "Azərbaycan Respublikasının kibertəhlükəsizlik strategiyası (2019-2024)" hazırlanıb və təsdiq olunma mərhələsindədir. O, İnternet İdarəçilik Forumunun öz ətrafında bütün maraqlı tərəfləri birləşdirməklə milli, regional və qlobal səviyyədə mövcud olan məsələlərin müzakirəsində mühüm rol oynadığını qeyd edib.

BMT İnkişaf Proqramının rəhbərinin müavini, Avropa və MDB üzrə Regional Bürosunun direktoru xanım Miryana Eqqer isə bildirib ki, BMTİP-in Azərbaycanda özünü təsdiqləmiş və artıq hər il təşkil olunan tədbirlərdən biri olan forum bu il çox önəmli mövzuya həsr olunub. Bu forum internetin gələcəyi ilə bağlı əhəmiyyətli müzakirələrə yol açır: "Eyni zamanda, forum heç kim kənarda qalmasın prinsipinə uyğun olaraq sadə insanların həyatını yaxşıya doğru dəyişmək, yeni nəsil idarəetmə üsullarını inkişaf etdirmək, eləcə də, internet texnologiyalarının potensialını daha yaxından araşdırmaq üçün yeni imkanlar irəli sürür, daha əhatəli və hər kəs üçün əlçatan olan idarəetmə platformalarını yaradır".

Beynəlxalq Telekommunikasiya İttifaqının MDB ölkələri üzrə regional bölməsinin rəhbəri Kiril Oparin də çıxışında forumun əhəmiyyətinə toxunub. Azərbaycanın Beynəlxalq Telekommunikasiya İttifaqı ilə bütün sahələrdə səmərəli əməkdaşlıq etdiyini vurğulayan bölmə rəhbəri Azərbaycan Respublikasının Prezidenti tərəfindən informasiya-kommunikasiya texnologiyaları, innovasiyalar sahəsinə böyük diqqət və dəstək göstərildiyini vurğulayıb.

Sonra İnternet İdarəçilik Forumunun Cenevrə Katibliyinin proqram və texnologiya meneceri Chengetai Masangonun tədbir iştirakçılarına videomüraciəti dinlənilib.

Forum işini "Regionun kibertəhlükəsizlik məsələləri", "Kibertəhlükəsizlik sahəsində beynəlxalq təcrübə", "Kibertəhlükəsizlikdə innovativ həllər", "Uşaqlar üçün təhlükəsiz internet" mövzularında sessiyalarla davam etdirib.

**AZƏRTAC**

# Azərbaycan ilə Kanada arasında gender sahəsində əməkdaşlığın perspektivləri müzakirə olunub

**Martın 13-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) sədri Hicran Hüseynova Kanada Baş nazirinin Avropa İttifaqı və Avropa məsələləri üzrə xüsusi elçisi, bu ölkənin Almaniyadakı səfiri Stefan Dionun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə ikitərəfli əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

Hicran Hüseynova Azərbaycanla Kanada arasında əlaqələrin yaxşı səviyyədə olduğunu deyib. O, iki ölkə arasında əməkdaşlığın daha da gücləndirilməsi üçün zəruri istiqamətlər və qarşılıqlı faydalı əsaslar üzərində iş birliyinin yaradılmasının vacibliyini diqqətə çatdırıb.

Görüşdə qeyd olunub ki, qadının cəmiyyətdə layiqli yer tutması Azərbaycan dövlətinin əsas məqsədlərindən biridir. Qadın və qızlarımız dövlətin yaratdığı bütün imkanlardan yararlanır, təhsil alır, ictimai-siyasi proseslərdə fəal iştirak edir, yüksək vəzifələr tutur, sahibkarlıq sahəsində geniş təmsil olunurlar. Onlar səhiyyə, təhsil, elm, mədəniyyət, idman, hüquq-mühafizə və s. sahələrdə fəaliyyət göstərirlər. Bu, Azərbaycan dövləti, xüsusilə Prezident İlham Əliyev tərəfindən aparılan uğurlu dövlət qadın siyasətinin məntiqi nəticəsidir.

H.Hüseynova deyib: "Bizimlə əməkdaşlıq qurmaqda maraqlı olmağınız bizi sevindirir və bunu dəstəkləyirik. Sizin ölkənizdə gender məsələləri çox yüksək səviyyədə olduğu üçün bu məsələlərə diqqətlə yanaşırsınız. Azərbaycanda ailə, qadın, uşaq problemlərinin həlli daim dövlətin diqqət mərkəzindədir. İstər həyata keçirilən təcrübə mübadiləsi, istərsə də imzalanan sənədlər çərçivəsində bir çox ölkələrlə yüksək səviyyəli əməkdaşlığımız qurulub. Ümid edirik ki, Kanada ilə də bu sahədə bizim yaxşı əməkdaşlığımız ola bilər". Komitə sədri birgə layihələrin həyata keçirilməsinin səmərəli olacağını bildirib.

Kanada Baş nazirinin Avropa İttifaqı və Avropa məsələləri üzrə xüsusi elçisi, səfir Stefan Dion Azərbaycana səfərindən məmnun olduğunu deyib. O, Azərbaycanda gedən inkişaf proseslərini, sosial sahədə əldə edilən uğurları yüksək qiymətləndirib.

Stefan Dion deyib: "Kanadanın Baş naziri Castin Trüdo məni ölkənizə göndərərkən bildirdi ki, Azərbaycanla münasibətlərin daha da gücləndirilməsi vacibdir. Gender bərabərliyi sahəsinə gəldikdə, birgə təşəbbüsləri dəstəkləməyə hazırıq".

Görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# Birinci vitse-prezident Mehriban Əliyevanın Fransa səfəri:

# Müasir diplomatiyamızda yeni səhifə

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın martın 11-12-də Fransa Respublikasına səfəri proqramının zənginliyi, görüş və danışıqların yüksək səviyyəsi ilə yadda qaldı. Azərbaycan-Fransa əlaqələrinin inkişafı baxımından mühüm əhəmiyyətə malik olan bu səfər diplomatiya tariximizə yeni səhifə kimi yazıldı. Səfər, eyni zamanda, dünya və Avropa ictimaiyyətində Azərbaycan barədə müsbət imicin formalaşmasından, ölkəmizə və şəxsən Mehriban xanım Əliyevaya böyük diqqət və hörmətdən, nəhayət, Birinci vitse-prezidentin diplomatik məharətindən xəbər verir.**

**Səfərin əhəmiyyətini, səciyyəvi məqamlarını bir daha diqqətə çatdıraraq, bununla bağlı fikir və mülahizələri oxucularla bölüşməyi lazım bildik.**



Fransa Qərbin aparıcı, inkişaf etmiş, Avropa İttifaqının lider dövlətlərindən biridir. Paris ənənəvi olaraq Avropa və dünya siyasətinə ciddi təsir göstərir. Cənubi Qafqazda da fəallığı ilə seçilən bu ölkə ATƏT-in Minsk qrupunun həmsədridir. Onun Yerevana təsir imkanları da ayrıca söhbətin mövzusu ola bilər. Fransada erməni diasporu və lobbisinin dövlət siyasətinə təsir göstərdiyi sirr deyil. Onlar Azərbaycan-Fransa əlaqələrini hər vəchlə əngəlləməyə, münasibətlərə kölgə salmağa çalışırlar. Lakin artıq zaman Azərbaycanın xeyrinə işləyir.

Fransa Azərbaycanla enerji sahəsində fəal əməkdaşlıq edir. "Total" şirkəti "Əsrin müqaviləsi"nin başlanğıcından bu neft kontraktında yer alıb. Parisin Azərbaycanla münasibətlərində diqqətçəkən daha bir məqam kosmik sahədə mövcud əməkdaşlıqdır. Azərbaycan kosmik peyklərini orbitə məhz Fransanın kosmodromundan çıxarır.

Göründüyü kimi, Fransa ilə əməkdaşlığın inkişafı Azərbaycanın xarici siyasətində həmişə prioritet istiqamətlərdən biri olub.

Mədəniyyət sahəsində əlaqələrə gəlincə, ilk növbədə, Heydər Əliyev Fondunun Fransada həyata keçirdiyi humanitar layihələr yada düşür. Artıq bu ölkənin mədəni həyatında Fondun yeri aydın görünməkdədir. Gəlin, xatırlayaq: Parisdə terror qurbanlarına həsr olunmuş 7-ci Beynəlxalq Konqresin keçirilməsinə, Fransanın müxtəlif regionlarındakı 20-dək kilsənin bərpasına yardım, Strasburq kafedralının XIV əsrə aid olan beş vitrininin, Versal Sarayının parkındakı ümumbəşəri abidələrin bərpası, Luvr muzeyində İslam İncəsənəti Departamentinin yaradılması və sair. Kann şəhərində Azərbaycan mədəniyyəti günləri keçirildi, Parisdə Azərbaycan Mədəniyyəti Mərkəzi yaradıldı, Fransa Dövlət Şərq Dilləri və Mədəniyyətləri İnstitutunda Azərbaycan dili fakültəsi açıldı... Bu, Fransada Heydər Əliyev Fondunun dəstəyi, bilavasitə Mehriban Əliyevanın təşəbbüsü ilə reallaşdırılan layihələrin heç də tam olmayan siyahısıdır. Təsadüfi deyil ki, birinci xanım Mehriban Əliyevanın Fransa-Azərbaycan əlaqələrinin inkişafına verdiyi böyük töhfələr, mədəniyyət, elm və təhsil sahələrindəki xidmətləri Fransa görüşlərində xüsusi vurğulanırdı. Bunu Fransanın Baş naziri Eduard Filip, Senatın sədri Jerar Larşe və başqaları dilə gətirdilər. Xatırlatmaq yerinə düşər ki, bu xidmətlərinə görə birinci xanım Mehriban Əliyeva Fransa Respublikasının "Şərəf Legionunun Zabiti" dövlət ordeni ilə təltif olunub.



Beləliklə, Fransa ilə münasibətlərin inkişafı istər siyasi-iqtisadi və humanitar baxımdan, istərsə də ermənilərin anti-Azərbaycan təbliğatının neytrallaşdırılması nöqteyi-nəzərindən müstəsna əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin Fransaya münasibətdə məqsədyönlü, düşünülmüş siyasəti bu ölkənin qapılarını üzümüzə daha geniş açır. Yüksək səviyyəli qarşılıqlı səfərlər ölkələrimiz arasında əlaqələrin möhkəmlənməsinə güclü impuls verir, ona arzuedilən dinamika gətirir.

Birinci vitse-prezident Mehriban Əliyevanın uğurlu Paris səfəri, yüksək səviyyəli görüşləri və danışıqları, ilk növbədə, bu praqmatik, milli maraqlara xidmət edən siyasətdən qaynaqlanır.

Əminliklə deyə bilərik ki, Fransa-Azərbaycan münasibətlərində yeni səhifə açan bu səfər qarşılıqlı əlaqələrin inkişafına ciddi töhfə verdi. Yeri gəlmişkən, bu fikrə Mehriban Əliyeva ilə görüşündə Fransa Respublikasının sabiq Prezidenti Nikola Sarkozi də şərik çıxdı.

Bu gün beynəlxalq miqyasda söz və nüfuz sahibinə çevrilən, etibarlı tərəfdaş kimi qəbul edilən Azərbaycanla əlaqələrin genişlənməsində dünyanın bütün inkişaf etmiş ölkələri kimi, Fransa da maraqlıdır. Bunu Mehriban xanımın Parisdə keçirdiyi bütün görüşlərdə Fransanın yüksək vəzifəli rəsmiləri də xüsusi vurğulayırdılar.

Birinci vitse-prezident Mehriban Əliyevanın Fransaya səfərini bir neçə aspektdən səciyyələndirmək olar. Dünya Mehriban xanımın Parisdə yüksək hörmət-izzətlə qarşılandığının, ona göstərilən ali diqqətin şahidi oldu. Bu mənzərə Fransa siyasi elitasının Mehriban xanım Əliyevanı nüfuzlu lider kimi qəbul etdiyini göstərir. Həm də onu göstərir ki, Mehriban Əliyeva Qərb ölkələrinin nəzərində müsəlman-Şərq aləminin müasir dünya ilə ayaqlaşan, eləcə də Qərb dəyərlərini dərindən anlayan mütərəqqi ictimai-siyasi xadimdir. Hazırda müsəlman ölkələrində bu statusa malik ikinci bir siyasətçi qadın tapmaq çətindir.

Səfərin digər mühüm aspektlərindən biri, qeyd etdiyimiz kimi, siyasi-iqtisadi, humanitar mövzularda yüksəksəviyyəli müzakirələrin aparılması oldu. Birinci vitse-prezidentin aparıcı şirkətlərin rəhbərləri ilə görüşləri və danışıqları Azərbaycanın qeyri-neft sektoruna xarici investisiyanın cəlb edilməsində Mehriban xanım Əliyevaya yüksək inam və etimadın, eləcə də onun şəxsi nüfuzunun göstəricisi kimi diqqəti çəkir. Fransanın iqtisadiyyat və maliyyə naziri Brüno Lömerin qeyd etdiyi kimi, Fransa ilə əlaqələr həm də ölkəmizin Avropa İttifaqı ilə yaxınlaşmasına böyük töhfə verə və Azərbaycanın bu təşkilata inteqrasiyası üçün pəncərə rolunu oynaya bilər.

Səfər çərçivəsində keçirilən görüşləri sıralasaq, Fransanın Baş naziri Eduard Filip ilə görüşü ön sıraya qoymaq olar. Ölkələrimiz arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini bildirən Fransa Baş nazirinin fikrincə, Azərbaycan böyük iqtisadi potensiala malikdir və ikitərəfli əməkdaşlıq üçün yaxşı perspektivlər var. Azərbaycanın neft və qeyri-neft sektorlarında çalışan fransız şirkətləri daha fəal olmalıdır. Birinci vitse-prezident Mehriban Əliyeva da bu fikirləri bölüşərək iqtisadi sahədə əməkdaşlıq üçün böyük potensialın olduğunu vurğuladı, fransız şirkətlərini ölkəmizdə daha fəal olmağa çağırdı. Humanitar sahədə əməkdaşlıqdan danışarkən Mehriban Əliyeva bildirdi ki, Azərbaycanda fransız dilinə və ədəbiyyatına böyük maraq var, ölkəmizin 300-dən çox məktəbində fransız dili tədris olunur. Bundan əlavə, Azərbaycan Dillər Universitetində fransız dili və ədəbiyyatı mərkəzi, Bakı Slavyan Universitetində fransız dili mərkəzi, Bakı Fransız Liseyi və Fransız-Azərbaycan Universiteti uğurla fəaliyyət göstərir.

Baş nazirlə təkbətək görüşün detalları tam açıqlanmasa da, səslənən fikirlər Fransanın Azərbaycanla bütün sahələrdə, xüsusən iqtisadi sahədə əməkdaşlığı daha da genişləndirmək istəyindən xəbər verir və bu, çox mühüm amil kimi diqqətəlayiqdir. Görüşdən sonra Birinci vitse-prezident Mehriban Əliyevanın və Baş nazir Eduard Filipin iştirakı ilə imzalanan Azərbaycan-Fransa sənədlərinə nəzər yetirsək, artıq bu istiqamətdə real addımların atıldığını görə bilərik.

Məsələn, "Azərbaycan Mərkəzi Bankı ilə "Rotchild & Cie" bankı arasında strateji əməkdaşlıq haqqında Saziş" imzalandı. Rotşildlərin bank biznesi investisiya-bank xidmətləri, korporativ bank xidmətləri, özəl kapital qoyuluşu, aktivlərin idarə olunması kimi mühüm sahələri əhatə edir.

Yaxud Azərbaycan Respublikası ilə Fransa İnkişaf Agentliyi arasında "Dəmir yolu sektorunun inkişafı proqramı çərçivəsində Şimal-Cənub nəqliyyat dəhlizinin Sumqayıt-Yalama dəmir yolu xəttinin yenidən qurulmasına dair konvensiya", "Əməliyyat Nəzarəti Mərkəzinin yaradılmasına dair araşdırma müqaviləsi" və "Xocasən" deposunun siqnalizasiya və telekommunikasiya sisteminin reallaşdırılmasına dair müqavilə" ölkəmiz üçün xüsusi önəmə malik sənədlərdir.

Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi ilə Hindistandan və Körfəz ölkələrindən göndərilən yüklərin Azərbaycan ərazisindən keçməklə Rusiyaya, Qərbi Avropaya, Baltikyanı və Skandinaviya ölkələrinə daşınması nəzərə alınarsa, haqqında söhbət gedən konvensiyanın icrası ölkəmizin iqtisadiyyatına böyük dividendlər gətirəcək.



Əməliyyat Nəzarəti Mərkəzinin yaradılmasına dair araşdırma müqaviləsi, "Xocasən" deposunun siqnalizasiya və telekommunikasiya sisteminin reallaşdırılması haqqında müqavilə isə nəqliyyat infrastrukturunun inkişafında mühüm rol oynayacaq.

Azərbaycan iqtisadiyyatının neftdən asılılığını azaltmaq, qeyri-neft sektorunu inkişaf etdirmək istiqamətində ardıcıl və davamlı iş aparır. Fransanın iqtisadiyyat və maliyyə naziri Brüno Lömer ilə görüşdə bu barədə söhbət açıldı. Nazir Azərbaycan iqtisadiyyatının şaxələndirilməsində Birinci vitse-prezidentin mühüm rolunu qeyd etdi. Mehriban Əliyeva isə öz növbəsində, ölkələrimiz arasında siyasi dialoqun yüksək səviyyədə olduğunu, ancaq mövcud iqtisadi əməkdaşlığın real potensiala cavab vermədiyini vurğuladı. Onun fikrincə, tezliklə konkret layihələrin həyata keçirilməsinə başlanılmalı, cari ildə Azərbaycan-Fransa Hökumətlərarası İqtisadi Komissiyasının növbəti iclası keçirilməlidir. Bu təkliflər fransalı nazir tərəfindən yüksək qiymətləndirildi.

Azərbaycan dövləti üçün prioritet məsələlərdən biri də ətraf mühitin mühafizəsidir. "Suez Groupe" şirkətinin beynəlxalq inkişaf üzrə icraçı vitse-prezidenti Erik Qebali ilə görüşdə Azərbaycan ilə bu şirkət arasında ətraf mühit, ekologiya və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olundu, ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə inkişafı ilə bağlı fikir mübadiləsi aparıldı. Suyun idarə edilməsi və su itkilərinə qarşı mübarizə sahəsində ölkəmiz ("Azərsu" ASC) və Fransa şirkəti arasında əlaqələrin müsbət təcrübəsi nəzərə alınarsa, bu əməkdaşlığın perspektivləri heç bir şübhə doğurmur.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Fransa səfəri çərçivəsində "Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri David dö Rotşild ilə görüşü də maraqlı məqamlarla yadda qaldı. Belə ki, Rotşildlər XIX əsrdə Azərbaycanda çox məşhur olublar. Bu barədə danışan Mehriban Əliyeva deyib: Bakı o zaman neft sənayesinin mərkəzi idi və Rotşild qardaşları Bakıya böyük investisiya gətirmişdilər. Bütün bunlar Bakıda neft sənayesini daha da canlandırmışdı. Rotşild qardaşları xeyriyyəçiliklə də məşğul olub, həmçinin Bakıda bir çox gözəl binalar tikiblər.

"Ailəmizin Sizin ölkənizdəki fəaliyyəti barədə bilirik və hesab edirəm ki, onlar tarixdə iz qoyan fəaliyyət göstəriblər", - deyən "Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri Rotşildlərin Azərbaycandakı fəaliyyətinin tarixi köklərinin olduğunu bildirdi və Mehriban Əliyevanın ölkəmizə səfər dəvətini məmnunluqla qəbul etdi.

Fransa Senatının sədri Jerar Larşe, Milli Assambleyanın sədri Rişar Ferran ilə, həmçinin Fransa-Azərbaycan dostluq qrupunun sədri və müşavirlərlə görüş, aparılan səmərəli danışıqlar isə parlamentlərarası əlaqələr, habelə mədəniyyət, elm, səhiyyə və təhsil sahələrində Azərbaycan-Fransa münasibətlərinin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir.

Səhiyyə sahəsinə gəldikdə, Fransa Milli Xərçəng İnstitutunun təsisçisi və keçmiş prezidenti professor David Hayat ilə görüş çox əlamətdar sayıla bilər. Nəzərə alsaq ki, Birinci vitse-prezident ölkəmizdə səhiyyənin inkişafına hərtərəfli diqqət və qayğı göstərir, bu sahədə Fransa-Azərbaycan əməkdaşlığının yeni istiqamətlərinin müəyyənləşdirilməsi təcrübə mübadiləsinə və iki ölkənin onkoloji mərkəzləri arasında daha sıx əməkdaşlığın yaradılmasına, müştərək layihələrin həyata keçirilməsinə təkan verəcək.

Birinci vitse-prezident Mehriban Əliyevanın Fransaya səfəri iki dövlət arasında mədəni əlaqələrin inkişafı baxımından da çox əhəmiyyətlidir. Bu və digər məsələlər Fransanın birinci xanımı Brijit Makron ilə görüşdə müzakirə edildi. Brijit Makron qədim Azərbaycan mədəniyyəti incilərinin populyarlaşdırılması və beynəlxalq ictimaiyyətə çatdırılması işində Mehriban Əliyevanın müstəsna rolunu yüksək qiymətləndirdi. Onun rəhbərliyi ilə müxtəlif vaxtlarda Fransada keçirilmiş mədəni tədbirlərin əhəmiyyəti vurğulandı. İnamla demək olar ki, bu görüş ailə və qadın problemləri, gender bərabərliyi, təhsil, ətraf mühitin mühafizəsi məsələlərində əməkdaşlığın dərinləşdirilməsinə xidmət edəcək.

Səfər çərçivəsində Birinci vitse-prezident Mehriban Əliyeva Fransanın mədəniyyət naziri Frank Risterin müşayiəti ilə Parisdəki Orsey muzeyini ziyarət etdi. Bu, bir daha təsdiqlədi ki, mədəniyyət sahəsi Azərbaycan-Fransa əlaqələrinin mühüm istiqamətlərindən biridir.

Fransada keçirilən bütün görüşlərdə Azərbaycanın bir nömrəli problemi olan Dağlıq Qarabağ münaqişəsi də xüsusi diqqət yetirilən mövzulardan idi. Birinci vitse-prezident Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ölkəmizin prinsipial mövqeyini fransız hakimiyyətinin yüksək dairələrinə bir daha çatdırmaqla, ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi nizamlanma prosesində Fransanın məsuliyyətinin xatırladılması üçün səfərin yaratdığı bütün imkanlardan istifadə etdi.

Bütövlükdə, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransaya səfərini əlamətdar hadisə kimi səciyyələndirmək olar. Bu səfər, heç şübhəsiz, bütün istiqamətlər üzrə dövlətlərarası əlaqələrin inkişafında, o cümlədən ölkəmizin Avropa İttifaqı ilə yaxınlaşmasında, Azərbaycanın Aİ-yə inteqrasiyasında müstəsna rol oynayacaq.

**Aslan ASLANOV,**
**AZƏRTAC-ın İdarə Heyətinin sədri,**
**Dünya Xəbər Agentlikləri Konqresinin və OANA-nın prezidenti.**

# GORANBOY: İNKİŞAF VƏ TƏRƏQQİ DÖVRÜ

**Qabaqcıl aqrar rayonlardan olan Goranboyda "2018-ci ilin sosial-iqtisadi inkişafının yekunları və 2019-cu ildə qarşıda duran vəzifələr" barədə geniş hesabat yığıncağı keçirilmiş, nailiyyətlərə nəzər salınmış, 2019-cu ildə görüləcək önəmli məsələlər ətraflı müzakirə edilmişdir. İlk öncə Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyev, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Arif Novruzov, millət vəkilləri Ağalar Vəliyev və Mahir Aslanov, Rayon İcra Hakimiyyətinin, YAP şəhər Təşkilatının nümayəndələri, hüquq-mühafizə orqanlarının, təhsil, səhiyyə, mədəniyyət və xidmət rəhbərləri və ziyalılar ümummilli lider Heydər Əliyevin əzəmətli abidəsi önünə tər qərənfillər qoymaqla, bir dəqiqəlik sükutla yad etdilər. Sonra dövlət rəsmiləri Heydər Əliyev parkında təşkil olunmuş sərgidə nümayiş olunan, rayonda tədarük olunan kənd təsərrüfatı məhsullarının və istehsal olunan sənaye məhsulları ilə, o cümlədən rayonun sosial-iqtisadi inkişafın xronikası ilə tanış oldular.**





Heydər Əliyev Mərkəzinin akt zalında yığıncaq öz işinə başladı. Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyev tədbir iştirakçılarını salamlayaraq, Azərbaycanda gedən davamlı inkişafdan danışaraq qeyd etdi ki, həm bölgədə, həm də Avropada iqtisadi, hərbi, siyasi böhran yaşanmasına baxmayaraq, bu il də Azərbaycan iqtisadiyyatı uğurla inkişaf etmiş, sabitlik təmin edilmiş, xalq təhlükəsizlik şəraitində, rifah içində yaşayır. Ötən əsrin sonlarında tarixi müstəqilliyinə qovuşan Azərbaycan Respublikası xalqımızın ümummilli lideri Heydər Əliyevin böyük uzaqgörənliklə işləyib hazırladığı sosial-iqtisadi inkişaf strategiyasının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən məntiqi ardıcıllıqla həyata keçirilməsi nəticəsində dünyanın ən sabit və dinamik inkişaf edən bir ölkəsi kimi yüksək nüfuz qazanmışdır. On beş ildə olduğu kimi, 2018-ci ildə də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müdrik rəhbərliyi nəticəsində ölkəmizin dinamik inkişafı təmin edilmiş, qarşıda duran məsələlər öz həllini tapmış, böyük layihələr icra olunmuşdur.

Respublikamızın hər yerində olduğu kimi, Goranboy rayonu üçün də ötən il uğurlu olmuşdur. Rayonun makroiqtisadi göstəriciləri xeyli yaxşılaşmışdır. Ümumdaxili məhsul buraxılışının həcmi 220,4 milyon manat, sənaye məhsulunun həcmi 12,2 milyon manat, tikinti işlərinin həcmi 58,2 milyon manat, kənd təsərrüfatı məhsullarının həcmi 87,1 milyon manat təşkil etmişdir. Əhaliyə 60,1 milyon manat ticarət, 3,7 milyon manatlıq nəqliyyat xidməti göstərilmişdir. Əsas kapitala 64,9 milyon manat investisiya yönəldilmişdir. Əhalinin pul gəlirləri 328,6 milyon manat (əvvəlki illə müqayisədə 8 faiz çox), adambaşına düşən pul gəliri isə 3157 manat və ya əvvəlki illə müqayisədə 7 faiz olmuşdur.

Rayonda tikinti-abadlıq və quruculuq işləri davam etdirilmişdir. Müasir memarlıq üslubunda Bayraq Muzeyi tikilmiş, 72 metr hündürlüyündə Dövlət Bayrağı ucaldılmışdır. Bayraq Meydanında 930 kv.metr tomet düzülmüş, yeni gül kolları əkilmiş, yaşıllıq salınmış, ərazidə 18 ədəd yeni işıqlandırma dirəyi quraşdırılmışdır.

Dövlət başçısı cənab İlham Əliyevin sərəncamı ilə rayonda xalça istehsalı emalatxanası tikilmişdir. Bu, həm yeni iş yerlərinin açılması, həm də Goranboyun qədim xalçaçılıq ənənələrinin yaşadılması deməkdir. Emalatxanada ən azı 150 nəfər işlə təmin olunacaqdır.

Yaşayış binalarının müasir görkəmə salınması ilə bağlı möhtərəm Prezidentimizin tapşırığına əsasən Goranboy şəhəri M.Məhərrəmov küçəsi 22 saylı yaşayış binasının dam örtüyü, fasad və həyətyanı sahələrində təmir işləri görülmüşdür.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təhsilimizin inkişafına göstərdiyi xüsusi diqqət və qayğının nəticəsidir ki, son illərdə 24 məktəb, 3 əlavə tədris korpusu tikilmiş, 11 məktəb əsaslı təmir edilmişdir.

Məktəbəqədər təhsil müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması diqqət mərkəzində saxlanılmışdır. Kələk kəndində yeni bina tikilərək 35 yerlik Körpələr evi-uşaq bağçası açılmışdır. Düzqışlaq və Sarov kənd Körpələr evi-uşaq bağçasında əsaslı təmir işləri aparılmışdır.

Ötən il taxılçılıq sahəsində də müəyyən uğurlar əldə edilib. 19 min 739 hektar sahədən orta məhsuldarlıq 29,5 sentner olmaqla 58 min 325 ton taxıl istehsal edilmişdir. 5 min hektarda pambıq əkilmiş, 9 min 136 tondan artıq məhsul toplanaraq qəbul məntəqələrinə təhvil verilmişdir.

Kənd təsərrüfatının gəlirli sahələrindən biri olan baramaçılığın inkişafına dövlət dəstəyi kümçülərdə marağı xeyli artırmışdır. Məhz bunun nəticəsidir ki, rayonda barama istehsalı 2,17 tondan 9,8 tona yüksəlmiş, kümçülər 100 min manata yaxın gəlir əldə etmiş, 10 min ton şəkər çuğunduru yığılmışdır. 8 hektar sahədə tütün əkilmiş, 13,9 ton quru tütün təhvil verilmişdir.

Rayonun bir sıra yaşayış məntəqələrində tərəvəzçilik artıq ixtisaslaşmış sahə kimi xarakterizə olunur. Xüsusilə daha çox gəlir gətirən xiyar və pomidor məhsullarının yetişdirilməsinə maraq çoxalmışdır. Bu məqsədlə artıq rayonda sahəsi 59 min 260 kv.metr olan 17 istilikxana fəaliyyət göstərir.

Rayonun suvarma suyuna olan tələbatının ödənilməsi üçün ciddi işlər görülür. 2017-ci ildə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadənin yaxından köməkliyi ilə Şəmkir maşın kanalından Dəliməmmədli şəhərinə və kanal altında yerləşən 8 kəndə suvarma suyu verildi.

Möhtərəm Prezidentimizin tapşırığı ilə respublikada elektrik təsərrüfatı yenidən qurulur. Əhali bunu yüksək qiymətləndirir. Çünki elektrik təsərrüfatının yenidən qurulması davamlı və etibarlı enerji ilə təminat deməkdir. Artıq rayonda da 22 yaşayış məntəqəsində elektrik təsərrüfatı yenidən qurulmuş, ümumilikdə 550 km-dən çox ÖİN kabel xətləri çəkilmiş, 136 ədəd müxtəlif gücdə komplekt transformator məntəqəsi quraşdırılmışdır.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Arif Novruzov və millət vəkili Ağalar Vəliyev çıxış edərək, Prezident cənab İlham Əliyevin rəhbərliyi altında respublikanın sosial-iqtisadi inkişafı sahəsində əldə olunmuş nailiyyətlərdən ətraflı söhbət açdılar.

Sonda rayonun ictimai həyatında yüksək fəallığına görə bir qrup gəncə YAP üzvlük vəsiqəsi təqdim olundu.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət qəbul olundu.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

## Göyçayda növbəti satış yarmarkası

**Novruz bayramı ərəfəsində şəhərdə süni qiymət artımının qarşısını almaq məqsədi ilə "Təzə bazar" adlanan ərazidə ərzaq və kənd təsərrüfatı məhsullarının satış yarmarkası təşkil olunub.**

Yarmarkada rayonun fermerləri və məhsul istehsalçıları tərəfindən 8 tondan çox müxtəlif çeşidli yerli ərzaq və kənd təsərrüfatı məhsulları satışa çıxarılıb. Satışa çıxarılan məhsullar alıcılara bazar qiymətlərindən 15-20 faiz ucuz təklif edilib.

Rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadə, idarə və müəssisə kollektivlərinin rəhbərləri yarmarkadakı məhsulların keyfiyyəti və qiymətləri ilə maraqlanıblar.

Rayon sakinləri öz növbəsində, qiymətlərdən və yaradılmış şəraitdən razılıqlarını bildiriblər.

Təşkil olunan yarmarkada millət vəkilləri Ş.Hacıyev, H.Rəcəbli və E.Nəsirov iştirak ediblər.

**Maarif RZAYEV,**
**"Respublika".**

# "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyalarına start verilir

## *Budəfəki tur-aksiyada 3370 məktəbli iştirak edəcək*

**Artıq altıncı ildir ki, Azərbaycanın orta ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdlərinin "Ölkəmizi tanıyaq" devizi altında Vətənimizin müxtəlif bölgələrinə maarifləndirici tur-aksiyaları təşkil olunur. Dövlətimizin başçısı İlham Əliyevin tövsiyəsinə əsasən Prezident Administrasiyası təşkilatçılığı ilə keçirilən tur-aksiyalar gözəl ənənə halı alıb.**

AZƏRTAC xəbər verir ki, layihənin əsas məqsədi şagirdləri ölkəmizin müxtəlif bölgələrinin müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri, ümummilli lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın nailiyyətləri ilə yaxından tanış etmək, Prezident İlham Əliyevin qətiyyəti və iradəsi ilə respublikamızın dinamik sosial-iqtisadi inkişafı, gündən-günə abadlaşan şəhər və rayonlarımızın yeniləşən siması barədə gənclərdə əyani təsəvvür yaratmaqdır.

Ötən müddətdə ildə iki dəfə olmaqla 7 istiqamət üzrə (Bakı şəhəri, Naxçıvan MR, Gəncə-Şəmkir-Göygöl, Şamaxı-İsmayıllı-Qəbələ-Şəki-Zaqatala, Quba-Qusar-Xaçmaz, Lənkəran-Masallı-Lerik-Astara, Naftalan-Ağcabədi-Ağdam-Bərdə-Füzuli-Tərtər) 10 tur-aksiya təşkil edilib. Ölkəmizin bütün bölgələrinin əhatə olunduğu bu tur-aksiyalarda, ümumilikdə, 23 min 444 nəfər iştirak edib.

Martın 15-18 və 23-26 tarixlərini əhatə edəcək növbəti 11-ci tur-aksiyada isə 6 istiqamət üzrə Naxçıvan MR-si, 76 şəhər və rayondan, o cümlədən məcburi köçkün rayonlarından, ümumilikdə, 3370 nəfər iştirak edəcək. Bununla da, "Ölkəmizi tanıyaq" tur-aksiyalarında iştirak edən məktəblilərin sayı 26 mindən çox olacaq.

Tur-aksiyanın marşrutunda paytaxt Bakını xüsusi qeyd etmək lazımdır. Bu gün Bakı öz inkişafı, füsunkar gözəlliyi ilə dünyanın meqapolislərindən birinə çevrilib. Bakı artıq qədimliklə müasirliyin harmoniyasının simvoludur. Əsrlərin yadigarı olan Qız qalası Bakının qədimliyi, möhtəşəm Alov qüllələri, dünya memarlığının nadir incilərindən olan Heydər Əliyev Mərkəzi Azərbaycan paytaxtının müasirlik rəmzləridir. Son illər Bakı çox mötəbər beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib. Mədəniyyətlərarası dialoq, beynəlxalq humanitar forumları, idman yarışları, musiqi festivalları Bakını geniş coğrafiyada tanıdıb. Bakının adı müasir tariximizə Beynəlxalq humanitar forumların, "Eurovision-2012" musiqi yarışmasının, BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun, "Bakı-2015" birinci Avropa Oyunlarının, Formula 1 Avropa Qran-Prisinin, Dünya Şahmat Olimpiadasının, IV İslam Həmrəyliyi Oyunlarının ev sahibi kimi daxil olub. Tur-aksiya çərçivəsində Bakı şəhərinə səfər edəcək naxçıvanlı məktəblilər bu mühüm tədbirlər barədə ətraflı məlumat alacaq, Azərbaycan paytaxtının keçdiyi inkişaf yolu ilə tanış olacaq, tarixi və təbii yerlərə ekskursiyalar edəcəklər.

Beşminillik şəhər mədəniyyəti ənənələrinə malik olan qədim Naxçıvan Azərbaycanın, bütövlükdə Qafqazın və dünyanın sivilizasiya xəzinəsinə dəyərli töhfələr verib. Bir vaxtlar əzəmətli keçmişini yalnız tarixi abidələri ilə xatırladan Naxçıvan bu gün hamını heyran qoyan inkişaf diyarına çevrilib. İndi Naxçıvanı, sözün həqiqi mənasında, Azərbaycanın inkişaf dinamikasının əyani göstəricisi hesab etmək olar. Naxçıvanda inkişafın miqyası illərlə, aylarla deyil, günlərlə ölçülür. Təsadüfi deyil ki, Naxçıvan şəhəri 2018-ci il üçün İslam mədəniyyətinin, həmçinin respublikamızın Gənclər paytaxtı elan olunmuşdu. Bütün bu uğurları Naxçıvan Muxtar Respublikası Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində yaranmış blokada şəraitində əldə edib. Bu gözəl diyarda inkişafın təməli ulu öndər Heydər Əliyevin Naxçıvan Ali Məclisinin sədri olduğu dövrdə qoyulub və Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində daha da zənginləşib. Naxçıvan istiqaməti üzrə səfər edəcək tur-aksiya iştirakçıları blokada şəraitində intibah yaradan müasir Naxçıvanla tanış olacaq, ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü haqqında ətraflı məlumat alacaqlar. Eyni zamanda, məktəblilər Naxçıvanda bu günədək qorunub saxlanılan və bərpa olunan Möminəxatun, Nuh Peyğəmbər, Qarabağlar türbələri, "Əshabi-Kəhf" ziyarətgahı və digər qədim abidələr, M.T.Sidqinin, M.S.Ordubadinin və Y.Məmmədəliyevin ev-muzeyləri ilə tanış olacaqlar. Şagirdlərə, həmçinin Naxçıvanın "İslam Mədəniyyətinin Paytaxtı - 2018" missiyasını uğurla yerinə yetirməsi barədə də ətraflı məlumatlar veriləcək.

Gəncə-Şəmkir-Göygöl-Tovuz-Qazax-Ağstafa istiqaməti üzrə səfər edəcək məktəblilər bu bölgədə genişmiqyaslı quruculuq işləri, maddi-mənəvi irsin qorunması və bərpası istiqamətində həyata keçirilən önəmli sosial layihələr, həmçinin 200 il əvvəl salınan alman məskənləri ilə tanış olacaqlar. Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyinin tamam olması, bu hadisənin Azərbaycanın multikultural ənənələrə malik çoxəsrlik tolerantlıq məkanı kimi təbliğində böyük əhəmiyyətini nəzərə alan Prezident İlham Əliyev tərəfindən həmin əlamətdar tarixin qeyd olunması ilə bağlı Sərəncam imzalanması şagirdlərin diqqətinə çatdırılacaq.

Məktəblilər Azərbaycanın ikinci ən böyük şəhəri Gəncənin sosial-iqtisadi və mədəni həyatı ilə yanaşı, Nizami yurdunun yeni xəritəsində əksini tapmış müasir sənaye müəssisələri, turizm və sosial obyektləri, mədəniyyət ocaqları, yaraşıqlı prospektləri, park və xiyabanları ilə ətraflı tanış olacaqlar. Tur-aksiya iştirakçılarının Gəncə şəhərinin tarixi məkanlarına - Cavad xan məqbərəsinə, Cümə məscidinə, Şah Abbas məscidinə, Çökək hamama, Xan bağına, Qədim Qala divarlarına, "İmamzadə" kompleksinə, Comərd Qəssab türbəsinə, Nizami Gəncəvi məqbərəsinə, həmçinin Gəncə Dövlət Filarmoniyasının yeni binasına və Gəncə Bulvarına, Şəmkir rayonunda "Orta əsr Şəmkir şəhəri"nə, "Abidələr" parkına, Alman kilsəsinə, Şəmkir Aqroparkına, Göygöl rayonunda Alman kirxasına, sonuncu alman Viktor Klaynın ev-muzeyinə, Hacıkənd qəsəbəsinə və Göygöl Milli Parkına ekskursiyaları təşkil ediləcək.

Məktəblilər bu marşrut üzrə Tovuzda Heydər Əliyev Parkı, Heydər Əliyev Mərkəzi, "Dairəvi qala" və eramızdan əvvəl VI minilliyə aid Göytəpə abidəsi ilə tanış olacaqlar. Ağstafa rayonu ilə tanışlıq çərçivəsində Heydər Əliyev Mərkəzi, Heydər Əliyev parkı, Miniatür Azərbaycan Parkı, Musiqi Mərkəzi, xalça fabriki, peyntbol atıcılıq mərkəzi, "Saloğlu" mebel fabriki, Ağstafa Aqroparkı, Karvan-L EKO, Səməd Vurğun parkı şagirdlərdə böyük maraq oyadacaq. Məktəblilər bu marşrut üzrə Qazax rayonuna da səfər edəcəklər. Onlar Heydər Əliyev Mərkəzi, Gənclər Mərkəzi, Ədəbiyyat Muzeyi, Mütəfəkkirlər parkı, Qazax Cümə Məscidi, Qazax Müəllimlər Seminariyası, Tarix Diyarşünaslıq Muzeyi, Dilboz at heykəli, Dədə Qorqud abidə kompleksində olacaq, Səməd Vurğun adına park, Göyəzən dağı, Damcılı mağarası, Qazax sement zavodu, Səməd Vurğun poeziya evi, ilk azərbaycanlı hərbi təyyarəçi, Birinci Dünya müharibəsi iştirakçısı Fərrux Ağa Qayıbovun xatirəsinə ucaldılmış "Təyyarə" abidə kompleksinə baş çəkəcəklər.

Azərbaycanın iqtisadiyyatında qeyri-neft sektorunun, xüsusilə aqrar sahənin çox böyük payı var. İndi ölkədə qeyri-neft sənayesinin inkişafına xüsusi diqqət yetirilir. Bu inkişafın konturları Strateji Yol xəritələrində əksini tapıb. Bu baxımdan Lənkəran, Masallı və Astara rayonları ölkə iqtisadiyyatında mühüm yerlərdən birini tutur. Bu bölgə sitrus bağları, çay və çəltik plantasiyaları, səfalı məkanları ilə tanınır, tarixi yerləri, özünəməxsus adət-ənənələri ilə seçilir. İqtisadiyyatın şaxələndirilməsi baxımından mühüm rol oynayan bu sahələrin dirçəldilməsi üçün mövcud potensialın qorunub saxlanılması, həmçinin çəltikçilik, sitrus meyvəçilik, çayçılıq və cins heyvandarlıq təsərrüfatlarının, çəltik və çay emalı müəssisələrinin, sitrus meyvələrinin saxlanılması üçün logistik mərkəzin yaradılması nəzərdə tutulur.

Son illər bölgələrdə müasir mehmanxana və sağlamlıq komplekslərinin istifadəyə verilməsi Azərbaycanın iqtisadi potensialını nümayiş etdirməklə yanaşı, ölkəyə gələn turistlərin sayının artmasına da böyük təkan verir. Lənkəranın Haftoni qəsəbəsindəki inşası başa çatan Lənkəran İstisu və Sağlamlıq Mərkəzi də bu istiqamətdə həyata keçirilən əsaslı addımlardan biridir. Bu kompleksin inşası regionun turizm imkanlarının artırılması baxımından mühüm əhəmiyyət daşıyır.

Ölkəmizdə yeni-yeni istirahət guşələrinin, park və xiyabanların yaradılması, onların vətəndaşların ixtiyarına verilməsi həyata keçirilən sosial-iqtisadi layihələrin tərkib hissələrindən biridir. Astarada dənizkənarı park-bulvar kompleksinin ikinci hissəsinin tikintisi də bu istiqamətdə reallaşdırılan önəmli layihələrdəndir. Park-bulvar kompleksində rayon sakinlərinin və qonaqların istirahətinin yüksək səviyyədə təşkili, onların asudə vaxtlarının mənalı keçməsi üçün geniş imkanlar yaradılıb.

Respublikamızda uğurla həyata keçirilən sənayeləşmə siyasəti bölgələrdə də geniş vüsət alıb. Artıq Neftçala və Masallı sənaye məhəllələri sahibkarların istifadəsinə verilib. Sabirabad və Hacıqabul sənaye məhəllələrində isə tikinti işləri davam etdirilir. Bu sənaye məhəllələrində yüzlərlə yeni iş yeri yaradılıb.

Lənkəran-Masallı-Astara istiqaməti üzrə səfər edəcək məktəblilər bütün bunlar barədə məlumat alacaq, eyni zamanda, tarixi məkanlarla, yeni tikililərlə yaxından tanış ola biləcəklər. Lənkəranda "Qoşa qala" qapılarına, Həzi Aslanovun ev-muzeyinə, Dairəvi qalaya, Mayak binasına, Hirkan Milli Parkına, Xanbulan gölünə, çay plantasiyalarına, sitrus meyvə bağlarına, Astarada şəhər bulvarına, "Yanar bulağ"a və "Astara-çay" çay fabrikinə, Masallıda Tarix-Diyarşünaslıq Muzeyinə, Uşaq İncəsənət Məktəbinə, Dövlət Rəmzləri Muzeyinə, "ASAN həyat" kompleksinə, Masallı Sənaye Məhəlləsinə və Viləşçay su anbarına ekskursiya şagirdlərin yaddaşında silinməz iz qoyacaq.

Ölkə iqtisadiyyatında önəmli rola malik olan bölgələrimizdən biri də Qəbələ-Şəki-Zaqatala zonasıdır. Bu



rayonlarımız da digər bölgələrimiz kimi, həm turizm iqtisadiyyatı, multikulturalizm ənənələri, həm də tarixi məkanları ilə tanınır. Eyni zamanda, bu bölgədə barama, tütün və fındıqçılıq da geniş inkişaf edib.

Xüsusi qeyd etmək lazımdır ki, respublikamızda ənənəvi sahələrdən olan baramaçılığın inkişaf etdirilməsi və ipəkçiliyin müasir infrastrukturunun yaradılması istiqamətində həyata keçirilən zəruri tədbirlər ölkəmizin şimal-qərb bölgəsinin ən iri sənaye müəssisələrindən olan "Azər-İpək" ASC-nin fəaliyyətini əhəmiyyətli dərəcədə canlandırıb. Şəkidə yeni tut bağları salınır, baramaçılığın, ipəkçiliyin ənənələri yenidən bərpa olunur, "Azər-İpək" kombinatında geniş yenidənqurma işləri həyata keçirilir. Bir sözlə, qədim ipəkçilik sənəti ilə məşhur olan Şəkidə indi bu sahənin inkişafına xüsusi diqqət yetirilir. Şəki həm də öz mətbəxi, adət-ənənələri və tarixi məkanları ilə fərqlənir.

Məmur-vətəndaş münasibətlərində yeni yanaşmanın formalaşmasında "ASAN xidmət" mərkəzləri önəmli rol oynayır. Belə mərkəzlərdən biri də Şəkidə yaradılıb. Şəki "ASAN həyat" kompleksində dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən, ümumilikdə, 300-dən çox xidmət həyata keçirilir.

Ölkəmizin əsas turizm marşrutlarından biri olan Şəkidə "ABAD" Keramika və Tətbiqi Sənət Mərkəzi də istifadəyə verilib. Mərkəzin məqsədi ölkəmizin, əsasən də Şəki rayonunun tarixi keramika ənənələrinin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi, həmçinin müxtəlif çeşidli Azərbaycan gilinin dünyada tanıdılmasıdır. Bura həm də Qafqazda ilk Keramika Mərkəzi kimi tarixə düşüb. Mərkəzdə tanınmış əcnəbi sənətkarların iştirakı ilə beynəlxalq tədbirlər, həmçinin müasir avadanlıqlardan istifadə etməklə təlimlər təşkil olunur. Bu mərkəzdə keramika sənətindən əlavə, xalçaçılıq və digər sənətkarlıq sahələri üzrə təlimlər də keçirilir. Bütün bunlardan məqsəd yeni sənətkarların yetişdirilməsidir.

Ötən il istifadəyə verilən Şəki-Kiş avtomobil yolu bölgənin iqtisadiyyatına önəmli töhfə olmaqla yanaşı, turizmin inkişafında da mühüm rol oynayır. Bu yolun inşası yerli və xarici turistlərin Kiş kəndinə və "Marxal" istirahət mərkəzinə gediş-gəlişini xeyli asanlaşdırıb.

Bu gün, sözün əsl mənasında, xalqın və dövlətin maraqlarına uyğun hərtərəfli müstəqil siyasət həyata keçirən, sürətli və davamlı inkişaf yolu ilə uğurla addımlayan suveren Azərbaycanın üzərində əzəmətlə dalğalanan üçrəngli bayrağımız hər bir vətəndaşımızın qəlbində qürur və fərəh hissi doğurur. Bölgələrimizdə, o cümlədən Şəkidə Bayraq Muzeyinin yaradılması bunun bariz nümunəsidir. Belə muzeylərin yaradılması dövlət atributlarına olan sonsuz sevgini nümayiş etdirməklə yanaşı, gənc nəslin Azərbaycan bayrağına hörmət ruhunda tərbiyə olunmasına mühüm töhfə verir.

Azərbaycan artıq dünya miqyasında idman ölkəsi kimi tanınır. Nüfuzlu beynəlxalq turnirlərdə, idman yarışlarında, dünya və Avropa çempionatlarında, eləcə də olimpiadalarda yüksək yerlər tutan azərbaycanlı idmançılar öz nailiyyətləri ilə bunu təsdiqləyiblər. Ölkəmizin uğurla ev sahibliyi etdiyi nüfuzlu idman tədbirləri sırasında 2015-ci ildə Bakıda və Mingəçevirdə keçirilən I Avropa Oyunlarını, 2017-ci ildə paytaxtımızda təşkil olunan IV İslam Həmrəyliyi Oyunlarını, eləcə də Formula 1 yarışlarını misal göstərmək olar. Bütün bunlara Azərbaycanda idmana göstərilən dövlət qayğısı sayəsində nail olunub. Bu istiqamətdə həyata keçirilən siyasət Azərbaycanda idmanın populyarlaşdırılması, yeniyetmə və gənclər arasında təbliği üzərində qurulub. Eyni zamanda, ölkəmiz üçün yeni olan idman növləri də gənclər arasında yayılmaqdadır. Qəbələdəki "Tufandağ" Xizəkçilik Kompleksi, Qubadakı qolf meydançası, "Şahdağ" Turizm Mərkəzindəki xizək məktəbi həm turizmin inkişafı, həm də yeni idman növlərinin geniş yayılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Bu istiqamət üzrə səfər edəcək şagirdlər müasir turizm infrastrukturuna malik olan Qəbələdə "Tufandağ" Xizəkçilik Kompleksinə, qədimliyi ilə fərqlənən Çuxur Qəbələ Tarix və Mədəniyyət Qoruğuna, udilərin yaşadığı Nic kəndinə baş çəkəcək, onlara tikilməkdə olan Ləki-Qəbələ dəmir yolu barədə məlumat veriləcək. Zəngin Şəki mətbəxi, Dövlət Tarix-Memarlıq Qoruğu, Şəki Xan sarayı, Yuxarı Karvansaray, Aşağı Karvansaray, Cümə məscidi və Kiş kəndindəki qədim Alban məbədi, "Marxal" müalicəvi istirahət kompleksi, Heydər Əliyev Mərkəzi, Bayraq Muzeyi, "ABAD" Keramika və Tətbiqi Sənət Mərkəzi tur-aksiya iştirakçılarında zəngin təəssürat oyadacaq.

Məktəblilər vaxtilə gülçülük, tütünçülük və fındıq bağları ilə məşhur olan Zaqatalaya da gedəcəklər. Sadalanan ənənəvi və gəlirli aqrar sahələrin inkişaf etdirilməsi rayonun qarşısında duran əsas hədəflərdəndir. Şagirdlər Heydər Əliyev Mərkəzini ziyarət edəcək, müasir fındıq emalı müəssisəsi, tütünçülük təsərrüfatları ilə tanış olacaq, Tarix-Mədəniyyət Qoruğuna baş çəkəcək, Dədə Qorqud Meydanını gəzəcəklər. Qədim və müasir Zaqatala haqqında məlumatlar tur-aksiya iştirakçılarının böyük marağına səbəb olacaq.

Quba-Qusar-Xaçmaz bölgəsində də son illər aqrar sahənin, emal müəssisələrinin, xüsusən də turizm sənayesinin inkişafı istiqamətində çox böyük işlər görülüb. Bu bölgə həm də tarixi məkanları ilə tanınır. Aksiya iştirakçıları bütün bunlar barədə məlumat alacaq, eyni zamanda, Quba Soyqırımı Memorial Kompleksində erməni vəhşiliyinin əyani şahidi olacaqlar. Azərbaycanın bu dilbər guşəsi multikultural ənənələri ilə də seçilir. Bölgədə müxtəlif xalqların nümayəndələri əsrlərdən bəri dinc şəraitdə yaşayır, həm öz mədəniyyətlərini, həm də Azərbaycan xalqının mədəniyyətini zənginləşdirirlər. Yəhudilərin sıx məskunlaşdığı Qırmızı qəsəbəyə, Quba xalçaçılıq emalatxanasına, Cümə məscidinə, Tağlı körpüyə, Xınalıq yolundakı şəlaləyə, qolf meydançasına, "ABAD Factory" İstehsalat Kompleksinə ekskursiyalar məktəblilərin yaddaşında silinməz izlər qoyacaq. Qubada fəaliyyətə başlayan "ASAN həyat" kompleksi barədə məlumatlar da tur-aksiya iştirakçılarının marağına səbəb olacaq.

Azərbaycanın şimal bölgəsi iqtisadiyyatı ilə bərabər, turizmin inkişafı üçün də cəlbedici məkandır. Son illərdə bu bölgədə turizm infrastrukturunun yaradılması istiqamətində mühüm addımlar atılıb. Qusar rayonunda "Şahdağ" Turizm Mərkəzinə gələn turistlərin sayı ilbəil artır. Bu mərkəzi Azərbaycanın turizm brendi hesab etmək olar. Şahdağ təbiətin bütün fəsillərində öz gözəlliyi ilə fərqlənir. Məktəblilər bu mərkəzə səfərlə yanaşı, Qusar şəhərinin görməli yerlərini gəzəcək, Həzrə kəndindəki "Şeyx Cüneyd" türbəsi ilə tanış olacaqlar. Bu istiqamətdə tur-aksiyanın növbəti məkanı Xaçmaz rayonu olacaq. Xaçmaz şəhərindəki "Şəxsiyyətlər muzeyi"nə, Çənlibel parkına, xalça muzeyinə ekskursiyalar, rayonun sosial-iqtisadi inkişafı ilə bağlı görülən işlər məktəblilərdə böyük maraq doğuracaq.

Şagirdlərə, həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, o cümlədən 1994-cü il mayın 12-dən qüvvədə olan atəşkəsə məhəl qoymayan Ermənistan silahlı qüvvələrinin mövqelərimizə daim atəş açması, dinc əhalini, yaşayış yerlərini güllə-baran etməsi barədə ətraflı məlumat veriləcək. Belə ki, düşmən növbəti dəfə təxribata əl ataraq 2016-cı il aprelin 2-də yenidən mövqelərimizə hücuma keçib, bir neçə dinc sakini qətlə yetirib, Azərbaycan Ordusu bu hücumun qarşısını almaq üçün əks-hücumla bir sıra məntəqələri və yüksəklikləri azad edib. Lələtəpə yüksəkliyinin azad olunması ilə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə yenidən həyat qayıtdı. Prezident İlham Əliyevin böyük diqqət və qayğısı nəticəsində kənd qısa müddətdə yenidən quruldu, məcburi köçkünlər öz doğma yurdlarına qayıtdılar.

Həmçinin 1992-ci ildə Naxçıvan Muxtar Respublikası Şərur rayonunun erməni silahlı birləşmələri tərəfindən işğal edilən Günnüt kəndi və ətrafdakı mühüm strateji əhəmiyyətli yüksəkliklər, 11 min hektara yaxın ərazi 26 ildən sonra ötən ilin mayında Əlahiddə Ümumqoşun Ordunun əks-həmlə əməliyyatları ilə azad olundu. Bununla da ordumuz daha əlverişli mövqelərə yiyələndi. "Xunut" dağı və "Ağbulaq" yüksəkliyi, "Qızılqaya" dağı və "Mehridağ" işğaldan azad edildi, Dərələyəz mahalının Arpa kəndi nəzarətə alındı. "Qızılqaya" yüksəkliyinin azad olunması ordumuza İrəvan-Yexeqndzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna nəzarət etmək imkanı yaratdı.

Aprel və Günnüt qələbələri bir daha sübut etdi ki, Azərbaycan əsgəri, xalqımız nəinki müharibəyə tam hazırdır, hətta onu qısa vaxtda qalibiyyətlə başa çatdırmaq imkanındadır. Bu barədə məlumatlar məktəblilərin vətənpərvərlik ruhunu yüksəldəcək.

Ekskursiya zamanı məktəblilər Azərbaycanın təşəbbüsü ilə reallaşan bir sıra qlobal layihələr barədə də məlumatlandırılacaqlar. Diqqətə çatdırılacaq ki, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın yeni neft strategiyasının başlanğıcı hesab olunursa, bu strategiyanı uğurla davam etdirən Prezident İlham Əliyevin iştirakı ilə 2017-ci il sentyabrın 14-də Bakıda Heydər Əliyev Mərkəzində imzalanan "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi müddətinin 2050-ci ilədək uzadılmasına dair saziş isə "Yeni əsrin müqaviləsi" adlandırılır. İmzalanma mərasimində bir sıra nüfuzlu dövlətlərin, dünyanın nəhəng neft şirkətlərinin rəhbər şəxslərinin iştirakı buna sübutdur. Beləliklə, yeni müqaviləyə görə, AÇG-dən 2050-ci ilədək çıxarılacaq neftdən gələn gəlirlər ölkəmizin sosial-iqtisadi inkişafını daha da sürətləndirəcək. Yeni müqavilə həm də xarici tərəfdaş şirkətlərin Azərbaycan iqtisadiyyatına olan inamını göstərir.

Son illər Azərbaycanda nəqliyyat infrastrukturuna böyük investisiya yatırılır. 2017-ci il oktyabrın 30-da açılışı olan və qitələri birləşdirən, dəmir İpək yolu adlandırılan Bakı-Tbilisi-Qars dəmir yolu ilə Londondan Pekinədək qatarlar hərəkət edir, yüklər daşınır. Bu layihənin təkcə iqtisadi deyil, həm də geostrateji əhəmiyyəti var.

Məktəblilərə 2018-ci il mayın 29-da Səngəçal terminalında rəsmi açılış mərasimi keçirilən Cənub Qaz Dəhlizi, iyunun 12-də Türkiyədə TANAP qaz kəmərinin istifadəyə verilməsi, sentyabrın 26-da "Azerspace-2" peykinin orbitə buraxılması, həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə keçirilən tədbirlər, iyunun 26-da Silahlı Qüvvələrimizin yaradılmasının, sentyabrın 15-də Bakı şəhərinin işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş hərbi paradlar barədə də məlumatlar veriləcək.

Həmçinin şagirdlərə Dünya Bankı tərəfindən yayılan "Doing Business 2019" hesabatında Azərbaycanın 10 ən islahatçı dövlət siyahısına daxil edilərək daha çox islahat aparan ölkə elan olunması, 2019-cu ilin Azərbaycanda "Nəsimi ili" elan edilməsi, eləcə də ölkəmizdə sosial-iqtisadi sahədə həyata keçirilən islahatlar barədə də məlumatlar çatdırılacaq.

Aksiyanın bu mərhələsində məktəblilərin asudə vaxtlarında "Nə? Harada? Nə vaxt?" intellektual oyunları təşkil olunacaq, qaliblərə xatirə hədiyyələri veriləcək, onlar üçün teatr tamaşaları və konsert proqramları təşkil ediləcək.

**AZƏRTAC**

*Prof.Dr. Seyit Sertçelik:*

# Erməni problemi

## *Meydana çıxma prosesi (1678-1914); Müstəmləkə müharibəsi (1915-1923)*




*Son illərdə Azərbaycanda olduğu kimi, Türkiyədə də erməni problemi mövzusunda daha geniş miqyasda arxiv materialları tədqiqata alınmaqla çox dəyərli elmi, tarixi əsərlər yazılmışdır. Prof. Dr. Seyit Sertçelikin fundamental "Erməni problemi: meydana çıxma prosesi. 1678-1914", "Erməni problemi: müstəmləkə müharibəsi. 1915-1923" kitabları da bu sırada mühüm yer alır. Müasir çox qütblü dünyada daha da kəskinləşən geosiyasi və geoiqtisadi məsələlərin həllinin aktuallığının daha da artdığı yeni tarixi dönəm erməni məsələsinin real tarixi faktlar və elmi mənbələr əsasında açıqlanması zərurətini meydana gətirir. Bunu nəzərə alan Prof. Dr. Seyit Sertçeliyin sözügedən bu iki kitabı erməni problemi ilə bağlı Rusiya Federasiyasının arxiv və kitabxanalarında aparılmış araşdırmaların nəticəsidir. Müəllifin bu tədqiqat əsərlərində Rusiya mənbələri ilə bərabər, Çar Rusiyası və Sovet İttifaqı zamanında erməni tarixçi və müəlliflərin rusca və ermənicə qələmə aldıqları əsərlərdə geniş miqyasda araşdırılmışdır. Həmçinin ermənilərin Moskvada nəşr etdikləri "Армянскuй вестник" (Erməni bülleteni) və Odessada dərc etdikləri "Армяне и Война" (Ermənilər və Müharibə) adlı jurnallarda çap olunmuş yazılardan da geniş şəkildə istifadə edilmişdir. Bunlara əlavə olaraq, Güney Qafqazda və Rusiyada çap olunmuş müddətli nəşrlərdən də faydalanmışdır. Eyni zamanda, ermənilərlə bağlı Qərb tədqiqatçılarının qələmə aldıqları əsərlərin rus dilinə tərcümələrindən də istifadə olunmuşdur. Xüsusilə, qondarma "erməni soyqırımı" iddialarına dəstək kimi göstərilən və erməni dostu olduğu hər kəsə məlum olan alman tədqiqatçısı Dr. Johannes Lepsius və fransız tədqiqatçısı A.Barbinin əsərləri araşdırılaraq təhlil edilmişdir. Müəllif öz araşdırmalarında Osmanlı arxiv sənədləri və türk tarixçilərinin yazdıqları tədqiqat əsərlərindən də istifadə etmişdir.*

Məlumat üçün bildirək ki, bu kitabların müəllifi Seyit Sertçelik Yaxın Şərq Texniki Universiteti Fənn-Ədəbiyyat fakültəsinin tarix bölməsini bitirdikdən sonra təhsilini Ankara Universitetinin Sosial Elmlər İnstitutunun ümumi türk tarixi fakültəsində davam etdirmişdir. Sonralar Özbəkistanın Fərqanə Dövlət Universitetində dəvətli müəllim kimi fəaliyyət göstərmişdir. Dissertasiyasını Rusiya Federasiyası Sankt- Peterburq Dövlət Universitetinin filologiya fakültəsində müqayisəli dil sahəsində tamamlamışdır. Ankara Universiteti dil və tarix-coğrafiya fakültəsinin tarix bölməsində ümumi türk tarixi ixtisası üzrə tədqiqatçı, dosent və professor kimi çalışmışdır. Doktorluq dissertasiyasını tamamladıqdan sonra Moskva və Sankt-Peterburqdakı rus arxiv və kitabxanalarında erməni məsələləri ilə bağlı illərlə tədqiqat aparmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutu tərəfindən türk tarixi qarşısında göstərdiyi xidmətlərə görə "Fəxri Doktor" adına layiq görülmüşdür. Türkiyədə keçirilmiş 2011-ci il seçkilərində Ankaradan millət vəkili seçilmişdir. 2016-cı ildən etibarən Türkiyə prezidentinin baş məsləhətçisi vəzifəsində işləyir.

Prof. Dr. Seyit Sertçeliyin erməni problemi araşdırmaları regionda və dünya birliyində baş verən qlobal geosiyasi hadisələrin siyasi-fəlsəfi aspektdən tədqiqinə əsaslanır. Eyni zamanda, tarixilik və elmilik baxımından diqqətə çatdırılan bütün faktlar və hadisələr yaranan təbəddülatlar axarında yeniləşən maraqların fəlsəfi anlamını və siyasi mənzərəsini əks etdirdiyindən beynəlxalq ictimai fikirdə, elmi və siyasi dairələrdə böyük əhəmiyyətlilik və aktuallıq qazanır. Müəllifin apardığı tədqiqatın əsas mənbəyini Moskvadakı Rusiya Xarici Siyasət Arxivi, Rusiya Dövlət Hərb Tarixi Arxivi, Rusiya Federasiyasının Dövlət Arxivi, Rusiya Dövlət İctimai-Siyasi Arxivi ilə Sankt-Peterburqdakı Rusiya Dövlət Tarix Arxivi, Rusiya Dövlət Hərbi Dəniz Donanması Arxivi, Rus Coğrafiya Cəmiyyəti Arxivi, Rusiya Elmlər Akademiyası Arxivinin Sankt-Peterburq filialında aparılmış araşdırmalar təşkil edir. Səkkiz rus arxivində erməni məsələsinin ortaya çıxması ilə bağlı aparılmış ilk geniş aspektli araşdırma olması bu tədqiqatın əsas xüsusiyyətidir. Bundan başqa, tədqiqatda erməni tarixçilərinin Ermənistan arxivindən sənəd nömrələrini verərək istifadə etdikləri mənbələr də araşdırılmışdır.

Müəllif birinci kitaba yazdığı ön sözdə qeyd edir ki, bu sənədlər Rusiyanın Qafqaz Canişinliyinin tabeliyində olan məmurlarla yazışmaları, Qafqaz Canişinliyindən Çar hökumətinə təqdim edilmiş, əksəriyyəti məxfi, hətta "son dərəcə məxfi" qrifli məktublar, Türkiyədə çalışmış rus diplomat və kəşfiyyatçılarının öz hökumətlərinə göndərdikləri şifrəli teleqram, məxfi məktub və arayışlar kimi sənədlər, Rusiyanın Daxili İşlər Nazirliyi, Xarici İşlər Nazirliyi, Ticarət və Sənaye Nazirliyi kimi qurumlarına aid əksəriyyəti gizli olan yazışmalar, arayışlar və statistik məlumatlar, Rusiya Müdafiə Nazirliyi zabitlərinin Osmanlı dövləti ilə əlaqədar hazırladıqları müxtəlif məsələləri əhatə edən arayışlar, Çar Rusiyası qurumlarının əlinə keçmiş, Rusiyada fəaliyyət göstərən erməni təşkilatlarının öz aralarındakı yazışmalar və digər sənədlər, Rusiya ermənilərinin Türkiyədə apardıqları təhlil və araşdırmalar nəticəsində hazırladıqları arayışlar Boğos Nubar Paşa və dr. Zavriyev kimi öndə gələn erməni təmsilçilərinin Rusiya Xarici İşlər Nazirliyinə təqdim etdikləri yazılar, Avropada yaşayan ermənilərin Rusiyadakı soydaşları ilə yazışdığı və rus məmurlarının əlinə keçmiş məktublar, V Gevorq və digər erməni keşişlərinin çar dövlət dairələri ilə yazışmaları kimi fərqli sənədlərdən ibarətdir.

Və bunlara ilkin münasibət kimi Prof. Dr. Seyit Sertçelik tarixi hadisələrə həssaslıqla yanaşır. Bizə görə, çox doğru olan belə bir qənaətə gəlir ki, insanların, xalqların, millətlərin psixoloji xüsusiyyətləri öyrənilmədən aparılan tarix araşdırmaların keçmişdə qalmış hadisələri tam olaraq aydınlaşdırmasından və əks etdirilməsindən söhbət gedə bilməz. Buna görə, ermənilərin davranış və psixoloji xüsusiyyətlərinin araşdırılması lazımdır. Ermənilərlə bağlı erməni, rus və digər xarici tədqiqatçılar tərəfindən qələmə alınmış elmi əsərlər, rus arxivlərindəki hərbi arayışlar və digər sənədlər, araşdırılanda, onların psixologiyasını əks etdirən ortaq nöqtələr üzərində dayanılması diqqətimizi çəkir. Bu ortaq xüsusiyyətlər içində ermənilərin "fərdilik" və "milli hisslərinin inkişaf etmiş olduğu anlaşılır. Ermənilərdə fərdilik cəhətinin son dərəcə öndə gələn bir dəyər olduğu görünür. Buna görə də onlarda "özünü dəyərləndirmə" xüsusiyyətinin də inkişaf etdiyi vurğulanmaqdadır. Fərdilik duyğusu ilə birlikdə, ermənilərin milli duyğularının da xeyli inkişaf etmiş olduğu məlumdur. Onlar erməni olmaları ilə fəxr edirlər. Hətta Ermənistanın ilk rəhbəri Ovanes Kaçaznuninin sözü ilə desək, erməni xalqı özünə aşiqdir. Demək olar ki, hər təhsilli erməni öz millətinin keçmiş və gələcəkdəki siyasi əhəmiyyətinin olduqca böyük olduğu və olması vacibliyi düşüncəsini daşıyır. Ermənilərin "Birinci Dünya müharibəsindən əvvəlki toplumları beynəlxalq müstəvidə böyük siyasi oyunlardan kənarda qalsalar da, onlara bu halın "Osmanlı Dövləti və Rusiya arasında qalmalarından qaynaqlanmışdır" düşüncəsi hakimdir. Ermənilərdə olduqca inkişaf etmiş fərdilik duyğusu ilə milliyyətçilik duyğusunun onları müstəqil dövlət qurma axtarışlarına yönəltdiyi görünür. Bunlara bir də xaricilərin təşviq və təhrikləri əlavə edildikdə ermənilərin Osmanlı Dövlətinə qarşı başladıqları üsyanlar qaçılmaz olmuşdur.

Ermənilərin məlum olan başqa bir cəhətləri də xeyli "təşəbbüskar" olmalarıdır. Ermənilər bunun sayəsində Osmanlı dövlətində sənaye və ticarət sahələrində fəaliyyət göstərən millətlər arasında ən başda gələnlərdən olmuşlar. Əlbəttə, ermənilər bunu öz çirkin məqsədlərini həyata keçirmək üçün ən uyğun vasitə kimi qəbul etməklə, gerçək hədəflərinin nə olduğunu daim gizli saxlaya bilirlər. Ermənilərin milli xüsusiyyətlərindən bəlkə də ən öndə gələni, onların "bağırıb çığırmaları" yəni hadisələr qarşısında üsyankar bir davranış nümayiş etdirmələridir. Bir rus şeirində ermənilərin həmin xüsusiyyəti bu şəkildə əksini tapır: "Dar bir çarpayıda yalnız yatıram, yan otaqda erməni bağırır". Çar Rusiyası dönəmində, xüsusilə Güney Qafqazda yaşayan erməniləri yaxından tanıyan rus tədqiqatçısı V.L.Veliçkonun ifadəsi ilə şeirdəki "bağırır" sözü ermənilər üçün son dərəcə tipik bir nümunədir. Ermənilər, xüsusilə hər mövzuda bağırmağa, haray-həşir qoparmağa meyillidirlər. Sadəcə özləri yalan uydurmaqla, bağırmaqla qalmır, digər qəbilələri, axmaq və satın aldıqları insanları da yalan danışmağa və bağırmağa məcbur edirlər.

Erməni tarixi araşdırılanda onların müntəzəm şəkildə ətraflarında olan güclü dövlətlərdən asılı olduqları, ancaq rus tədqiqatçısı Veliçkonun yazdığı kimi, davamlı şəkildə onlara xəyanət etdikləri aşkara çıxır. Rus müəllif Orest Yevetski isə qeyd edir ki, hamının bildiyi kimi,"hiyləgər" və bəzən də "oyunbaz" olan ermənilər, xüsusilə, ticarət və alış-verişində bacarıqlı olmaları ilə musəvilərə bənzədilirlər. Türkiyənin Trabzon şəhərində fəaliyyət göstərmiş ingilis konsulu Vilyam Palqrave, erməniləri Avropadakı yəhudilərə bənzədərək yerləşdikləri (köçdükləri) şəhərin ticarətini bütünlüklə ələ aldıqlarını dilə gətirmişdir. Hətta ermənilərə "Şərq musəviləri" də deyilmişdir. Bir rus ata sözündə isə, "İki musavi bir erməniyə, iki erməni də bir şeytana bərabərdir!" deyilərək ermənilərin hiyləgərliyi xüsusi qeyd edilmişdir. Ermənilərin hiyləgərliyi ilə əlaqədar alman səyyahı Alferd Kyorte, "Rumlunun iki müsəvini aldatdığı" bir erməninin isə iki rumlunualdatdığı atalar sözünün hər yerdə təsdiq olunduğunu ifadə etmişdir. Kyorte, qələmə aldığı əsərində ermənilərin hiyləgərliyini qeyd edərək, "Sizi Anadolunun hər hansı bir yerində aldadıblarsa, demək, siz ermənilərlə iş görmüsünüz" yazmışdır. Alman səyyahı Kyorte, böyük bir iş adamının Əskişəhərdə ona "Mən bir türk ilə iş gördüyüm zaman yazılı bir sənəd imzalanmağa, ehtiyac hiss etmirəm, çünki onun sözü kifayətdir. Rumlarla yazılı sözləşmə hazırlayıram, çünki onlarla yazılı sənəd imzalamaq həm vacib, həm də faydalıdır. Erməni ilə isə, yazılı da olsa, heç bir iş görmürəm, çünki onların yalançılığından və intriqalarından yazılı şərtlərlə də qoruna bilməzsiniz", şəklində öz fikirini yazıya almışdır.

Oxşar ifadələr məşhur fransız yazıçısı Aleksandr Düma (1802-1870) tərəfindən də yazılmışdır. Fransız yazıçısı Düma, 1858-ci ildə Qafqaz səyahətindən sonra qələmə aldığı "Qafqaz səfəri" adlı əsərin birinci hissəsində bölgədə yaşayan xalqlarla əlaqədar müşahidələrini bu şəkildə dillə gətirmişdir: "Qafqazda yaşayan hər xalqın özünəməxsus xüsusiyyətləri vardır. Fars ipək ticarəti edər, ləzgi xalça satar, tatar (azərbaycanlı) silah satar; erməninin elə bir xüsusiyyəti yoxdur. Ümumən, ermənilər yaxşı təəssürat bağışlamazlar". Belə deyildiyini eşidərsiniz: "Əgər tatarbaşı (azərbaycanlı) ilə təsdiq edirsə, ona güvənin". Əgər fars sizə əlini uzadırsa ona güvənin. Əgər hər hansı bir dağlı sizə söz verirsə, ona güvənin. Əgər bir erməni ilə anlaşma edəcəksinizsə , ona bir kağız imzaladın və imzanı inkar etməməsi üçün də yanınızda iki şahid tutun".

Ermənilərlə eyni coğrafiyada yaşayan millətlərin onlar haqqındakı düşüncələri də maraqlıdır. Gürcülər ermənilər haqqında "Erməni gəldi, yeni dərd gətirdi" deyirlər. Güney Qafqazda yaşayan Azərbaycan türkləri arasında da ermənilər haqqında "Erməninin yolunu işıqlandırmaq üçün on barmağının onun da şam kimi yadırsan da, o sənə təşəkkür etməz" tərzində deyimlər mövcuddur.

Erməni tarixi araşdırıldıqda və təhlil edildikdə ermənilərin gizli təşkilatlar qurmaqda da son dərəcə məharətli olduqları görünür. Təşkilatlanmağı yaxşı bacaran ermənilərin başda iqtisadiyyat olmaqla digər sahələrdə də "hiylə qurmaqda" olduqca bacarıqlı olduqları məlumdur. Digər tərəfdən çar Rusiyasının Qafqazlarda nəşr edilən bütün qəzetləri, ya birbaşa, ya da dolayısı ilə ermənilərin təsiri altında idilər.

Ermənilərin milli xarakterini, davranış psixologiyasının ortaq nöqtələrini nəzərə alan müəllif yazır ki, onların həyəcanlı, emosiyalı olmaları ilə birlikdə, istiqamətləndirilməyə, idarə edilməyə meyilli olduqları da diqqət çəkməkdədir. Yəqin ki, bu səbəblə başda İngiltərə və Rusiya ilə digər böyük güclər, Anadoluda yaşayan qeyri müsəlmanlar arasından xüsusi olaraq erməniləri seçərək öz siyasi məqsədləri naminə Türkiyə üzərində milli maraqlarını gerçəkləşdirə bilmək üçün onlardan istifadə etməyi qərara almışlar.

XVII əsrin son on illiyində Erməni dövləti qurma layihələrinin yaranması, ermənilərun Güney Qafqazda hərəkata başlaması səbəbləri və hərəkətverici qüvvələri Prof. Dr. Seyit Sertçeliyin araşdırmalarında həmin dövrün geosiyasi tələtümləri kontekstində tədqiq olunub. Tarixin bu mərhələsində ermənilərin böyük bir qismi Osmanlı Dövləti hakimiyyətində ikən digərləri İranın tabeliyində idilər. Bu dövrdə Türkiyə və İran arasında aparılmış ticarətdə əhəmiyyətli yer tutan erməni tacirlərinin getdikcə zənginləşməsi ilə erməni burjua sinfi ortaya çıxmağa başlayır. Bu irəliləmə nəticəsində meydana çıxan burjua sinfinin bəzi təmsilçiləri yeni bir toplum ideologiyasını inkişaf etdirərək erməni dövlətinin qurulması üçün bir proqram gündəmə gətirirlər. Erməni dövləti qurulması istiqamətində bir proqramın hazırlanmasına təkan verən başqa bir səbəb isə İranda yaşayan hakim erməni sinfinin iqtisadi maraqlarının pisləşməyə başlaması olur. İranlı tacir və "məlik" adı verilən ermənilər çıxış yolu kimi bir erməni dövləti qurmağı gündəmə gətirirlər. Katolik missionerlər vasitəsi ilə avropalılarla təmasa keçən ermənilər arasında qərb dövlətlərinin yardımı ilə hədəflərinə çata biləcəkləri qənaəti yaranır. Ancaq Avropaya göndərilən ermənilərin fəaliyyətlərindən müsbət bir nəticə ala bilmədikləri məlum olur. Erməni tədqiqatçısı Ağayan Qərbi Avropa ölkələrinin rəhbərlərinin öz mənafelərini düşündüklərini, buna görə ermənilərə dəstək verməyi qəbul etmədiklərini yazır. Beləliklə, xarici güclərin yardımı ilə qurmağı xəyal etdikləri erməni dövləti ilə əlaqədar ilk cəhdlər uğursuzluqla nəticələnsə də ermənilərin istəyinə dəstək verən dövlət tapılır.

Rusiyada taxta çıxan Birinci Pyotr şimalda əhəmiyyətli uğurlar qazanır və üzünü cənuba çevirir. Bununla da Rusiya və Osmanlı dövləti müharibə meydanlarında qarşılaşmalı olur. Rusiya türklərlə apardığı müharibələrdə zəfər qazana bilmək üçün Osmanlı dövlətinin xristian vətəndaşlarını öz tərəfinə çəkmək zərurətini anlayır. Bunun reallaşması üçün isə xristianlara azadlığa çıxacaqları ilə bağlı ümid lazım idi. Halbuki, Çar hökuməti məqsədinə çatmaq və Rusiyanın maraqlarını gerçəkləşdirməkdə xristianları sadəcə bir vasitə kimi görürdü.

Məşhur rus tarixçisi S.M. Solovyovun yazdığına görə, rus çarı I Pyotr ələ keçirdiyi torpaqları qorumanın ən yaxşı yolunun bölgədə müsəlman əhalisinin sayını azaltmaq, xristianların sayını isə artırmaq olduğunu düşünürdü. I Pyotrun 10(23) noyabr 1724-cü il tarixində "Türk himayəsi altında yaşayan bütün ermənilərin qurtarılması və bütün Ermənistanın Rusiyaya qatılması" haqqında tarixi bir fərman verdiyi də məlumdur. Rusiya torpaqlarında ermənilərin yayılması isə II Yekaterina dövrünə təsadüf edir. Bu dövrdə Osmanlı dövlətindən köçmüş ermənilər rusları yeni fəth etdikləri Krım torpaqlarına yerləşdirirlər. Çar hökuməti yeni fəth edilən ərazilərinə ermənilərdən ticarət sahəsində faydalanmağın və onları müharibələrdə türklərə qarşı istifadə etməyin yollarını müəyyənləşdirir. Nəhayət, I Pyotru özünə nümunə seçən II Yekaterina Osmanlı dövlətinin xristian vətəndaşlarına bir bəyannamə yayaraq türklərlə aparılacaq müharibələrdə dəstək verənlərə müstəqillik sözü verir. Çar idarəsinin vədlərinə inanan xeyli erməni, sonrakı illərdə Türkiyədən Krıma köçür.

XIX əsrin gəlişi ilə Rusiyanın imperialist hədəfləri istiqamətində həyata keçirdiyi siyasətinin yönünü Güney Qafqaza çevirməsinin, 1826-1828-ci illər İran-Rusiya və 1828-1829-cu illər Osmanlı-Rusiya müharibələrində Rusiya ilə ermənilərin müttəfiqliyinin mahiyyətinə aydınlıq gətirən Seyit Sertçelik yazır ki, Güney Qafqazın rus hakimiyyəti altına girməsindən sonra bölgədə yaşayan zəngin erməni uşaqları ya rus məktəblərində, ya da Avropaya göndərilərək orada oxutdurulurlar. Eyni zamanda, erməni kilsələrinə bağlı məktəblərdə təhsil alan uşaqlar ali təhsillərini rus universitetlərində davam etdirirlər. Bir tərəfdən kilsə məktəblərində erməni dilini və tarixini öyrənən uşaqlar erməni milli ruhda yetişdirilməkdə, ancaq öyrəndikləri bilikləri aşkar etməmələri təlqin olunmaqda idi. Digər tərəfdən, rus məktəblərində oxuyan erməni gəncləri dünyəvi və qərb tərzli bir təhsil aldıqlarından 1789-cu il Fransa İnqilabının milliyyətçilik fikirlərindən təsirlənirdilər.

Beləliklə, gerçəkdən də onlar (ermənilər) bu gərgin fəaliyyət nəticəsində avam camaata bir missiya yüklədilər. Bu missiya "böyük Ermənistan" adını daşıyırdı. Qədim mifoloji qaynaqlı kilsə təhsili indi milli bir formaya, konsepsiyaya çevrilmişdi. Zaman-zaman dünyəvi ermənilərlə kilsə tərəfdarları arasında çəkişmələr olsa da "türklük" əleyhinə məsələlərdə ümumi ittifaq içində idilər. Səhv və ya doğru Rusiyadakı və qərbdəki erməni ziyalıları var gücləri ilə yeni bir erməni kimliyi, erməni xalqı tarixi folkloru və musiqisini inşa etməkdə idilər.

Prof. Dr. Seyit Sertçelik "Erməni problemi: meydana çıxması prosesi, 1678-1914" kitabında erməni millətçiliyinin təşəkkülünün ümumi istiqamətlərini və başlıca vəzifələrini aşağıdakı kimi müəyyən edir:

A) Missionerlik fəaliyyətləri və xarici məktəblər. Osmanlı dövlətində erməni probleminin yaradılmasında ölkədə fəaliyyət göstərən missionerlərlə xarici məktəblərin də rolu olduğu məlumdur. Əslində avropalıların Türkiyədə yaşayan ermənilər üzərindəki təbliğatları XIV əsrdən etibarən, missionerlər vasitəsilə başladıldı. Bu tarixdən sonra Avropanın və Papanın ermənilər katolikliyi qəbul edəcəkləri halda, onlara yardım olunacağı fikri vurğulanmağa çalışıldı. Avropalıların ermənilərlə maraqlanmağa başlamaları ilə, XVI əsrdən başlayaraq, erməni katolikosları Qərb ölkələrini ziyarət etməyə başladılar. XVIII və xüsusilə, XIX əsrdən etibarən isə, qərbli missionerlər Osmanlı dövlətində təşkilatlanmağa başlamışlar. 1701-1702-ci illərdə Fransa, XIX əsrin başından etibarən İngiltərə, 1819-cu ildən sonra Amerikadan gələn missionerlər Anadoluda təşkilatlanmağa və təbliğat fəaliyyətlərinə girişirlər.

B) Nəşr və ədəbiyyat sahəsindəki çalışmalar. Mənsub olduqları ölkə yönəticilərinin dəstəyini almaqda çətinlik çəkməyən Qərb mətbuatının təbliğat məqsədilə nəşr etdikləri yazılar Türkiyədə yaşayan azlıqlar üzərində təsirini hiss etdirir. Qərblilər tərəfindən ermənilərə yönəldilmiş təbliğati fəaliyyətlər əvvəlcə dini məzmunla meydana çıxır. Rusların Balkanlarda yaşayan xristian xalqları Osmanlı hakimiyyətindən qurtarmasından cəsarətlənmiş ermənilər özlərinin yunanlarla və bolqarlarla bərabər olduqlarını düşünürdü. Digər tərəfdən, Osmanlı hakimiyyətindən qurtarılmaları üçün ən böyük ümidlərini Rusiyaya bağlamış ermənilər, bu ölkədə təşkilatlanmış bir təbliğat aparmağın vacibliyini anlayırlar.

C) Təbliğat fəaliyyətləri. Təbliğatın hədəfi insanların düşüncələrinə təsir etməkdir. Bu cəhəti ilə psixoloji müharibə "terror aktlarının" yaradıcısı da ola bilir, ya da bu aktlara lazım olan şəraiti hazırlaya bilər. Ölkə içində qarışıqlıqlar yaradan, ya da mövcud qaynamaları fürsət bilən dövlətlər, psixoloji müharibə üsulu ilə ölkənin daxili işlərinə müdaxilə edə bilər və ya daha da irəli gedərək, bu bəhanə ilə ölkəni işğal etmək istiqamətində bəzi hərbi addımlar ata bilərlər. XIX əsrin sonlarına yaxın Anadoluda baş verən hadisələr nəzərə alındıqda, aparılan təbliğatlar və erməni komitələrinin ölkədə həyata keçirdikləri terror aktlarının nəyə xidmət etdiyi ortaya çıxır. Osmanlı dövləti üzərində imperialist hədəflərinə çatmaq istəyən böyük güclərin, xüsusilə, İngiltərə və Rusiyanın tətbiq etdiyi üsulların günümüzdə bilinən "psixoloji müharibə" mahiyyətli bir model olduğu anlaşılmaqdadır. Erməni müəllif Karinyanın ifadəsi ilə gündən-günə güclənən erməni burjuaziyası Eçmiədzini, kilsələrə aid camaat məktəblərini, mətbuatı və xeyriyyə qurumlarını ələ keçirdikdən sonra artıq "öz ocağına", "öz torpaqlarına" sahib olma və öz dövlətini qurma ehtiyacını daha güclü bir şəkildə hiss etməyə başlayır.

Tədqiqat və araşdırmaların kontekstindən çıxış edən müəllif belə bir nəticə əldə edir ki, ermənilər böyük güclərin Osmanlı dövləti üzərindəki iqtisadi və siyasi maraqlarını həyata keçirmək üçün istifadə etdikləri bir vasitə olublar. Osmanlı dövlətinin zəifləməsindən də faydalanan böyük dövlətlər ermənilərdən istifadə etməklə Türkiyə ilə bağlı istəklərinə çatmaq niyyətində olublar. Bu tədqiqatdan da göründüyü kimi, İranda XVII əsrin son rübündən etibarən, bir erməni dövləti qura bilmək üçün axtarışlara girən ermənilər hər dövrdə xarici dəstəklə məqsədə çatmağa çalışıblar. Ancaq ermənilər böyük güclərin əlində alət olduqlarını heç cür anlamaq istəməyərək milli xarakterlərinə uyğun həyasızcasına şöylənilən yalanla, cinayətkar əməllərlə həqiqətə, ədalətə qarşı çıxıblar.

Beləliklə, XIX əsrin ikinci rübündən etibarən İran və Türkiyədən gələn erməni köçləri ilə Güney Qafqazın demoqrafik quruluşu dəyişdirilməyə başlayır. Sonrakı dövrlərdə də buraya təşkil ediləcək köçlərlə XX əsrin əvvəllərində ermənilərin bu bölgədə əhali sayı artacaq. Bu proses 1918-ci ildə burada bir erməni dövlətinin ortaya çıxmasına yol açacaq. Çar Rusiyasının apardığı bu siyasət nəticəsində yaradılan Ermənistan, həqiqətən Türkiyənin Azərbaycandan başlayaraq Orta Asiyadakı qohumları ilə quracağı siyasi və iqtisadi, mədəni əlaqələrinin kəsilməsi mənasını verirdi. Əlbəttə, bu siyasət rus hökumətinin qəsdən tətbiq etdiyi, Türkiyə ilə Türküstanda yaşayan qardaşları arasındakı təbii ünsiyyət yollarının kəsilməsi ilə yadlaşma, danışıq dillərində fərqlər əmələ gəlməsi və bir sözlə əlaqələrin təbii inkişafına mane olunması üsulu idi.

Digər tərəfdən ermənilərin "Ovit" qəzetində 1912-ci ildə verilmiş bir yazıda, əslində günümüzdə əsassız "erməni soyqırımı" iddialarının təməlinin hələ o tarixlərdə atılmış olduğunu göstərir. Çünki məqalədə də ifadə edildiyi kimi, "Ermənilərlə bağlı dəhşət və türk vəhşilikləri" haqqındakı hay-küyləri artırmağın lazım olduğu erməni siyasətçilər tərəfindən qəbul olunub. "Erməni qırğını və türk vəhşilikləri" həqiqətdə deyil, heç şübhəsiz ki, erməni ziyalılarının xəyalları ilə erməni cəhalətindən istifadə etmək istəyənlərin layihələrində ortaya çıxmışdır..." Həmçinin, dünya ictimaiyyətinin səhv yönləndirməklə "yüksək tonla qışqıraraq türk hökumətini qorxudacaqları və xüsusilə Avropa dövlətlərini aldatacaqları ifadə edilməklə..." gunumuzdeki erməni iddialarının dünya ictimaiyyəti tərəfindən qəbul edilməsi ilə bərabər, az qala yüz illk yalana söykənən bir layihənin səbrlə aparılmasından qaynaqlandığı ortaya çıxır. Tiflisdə nəşr olunan erməni qəzeti "Ovit" də çap edilmiş bu məqalədə, "Ermənilərin qışqıraraq və mitinqlər təşkil edərək əbədi yaşayacaqları mühiti zəhərlədikləri..." də ifadə edilmişdir. Göründüyü kimi ermənilərin arasında da sağlam düşüncə ilə hərəkət edənlər olmasına baxmayaraq, erməni ziyalılarının böyük əksəriyyəti yalan xəbər və təbliğatlarla bölgədə yaşayan insanları bir-birinə düşmən etməyi hədəf seçirlər. Bundan əlavə, bəzi erməni ziyalıları, Osmanlı dövlətinə qarşı öz hədəf və maraqlarını reallaşdırmağa çalışan böyük güclərin ermənilərin cahilliyindən istifadə etməklə, yəni ermənilərdən istifadə edərək məqsədlərinə çatmağa çalışdıqlarını görmüşlər.

XX əsrin sonu - XXI əsrin əvvəllərindən etibarən həm Azərbaycanda, həm də Türkiyədə başlayan erməni məsələsi araşdırmaları artıq bu gün, inamla demək olar ki, istər elmi-akademik, istərsə də siyasi çevrələrdə öz təsirini göstərməkdə, çoxəsrlik erməni təbliğatının xüsusilə Qərbi Avropada formalaşdırdığı yanlış baxışları aradan qaldırmaqdadır. Professor Dr, Seyit Sertçeliyin fundamental "Erməni problemi" kitabı həmin sahədə görülmüş ən miqyaslı, ən keyfiyyətli işlərdən biridir, deyən akademik Nizami Cəfərov yazır ki, kitabın, ümumən müəllifin bu mövzudakı araşdırmalarının üç mühüm cəhəti ayrıca diqqət çəkməkdədir: "Birincisi odur ki, müəllif ilk dəfə olaraq Rusiyanın arxiv və kitabxanalarındakı zəngin sənədləri, materialları, indiyə qədər ya məlum olmayan, ya da az məlum olan faktları sistemli şəkildə tədqiqata cəlb etməklə mövzunun daha miqyaslı, daha obyektiv öyrənilməsi üçün geniş imkanlar açır. İstər rus, istərsə də erməni mənbələrinin elmi dövriyyəyə gətirilməsi "erməni məsələsi"nin mahiyyətini anlamaq baxımından ona görə əhəmiyyət kəsb edir ki, həmin mənbələr dünyada tarix boyu özünə xüsusi mövqe, səlahiyyətlər, layiq olmadığı üstünlüklər axtaran, bunun üçün hər cür münaqişələrə, xəyanətlərə, provakasiyalara əl atan ermənilərin "mübarizə məntiqi"nin mahiyyətini birbaşa "öz dili ilə" nümayiş etdirir.

İkinci cəhət tədqiqata cəlb olunmuş "ilk əldən" yeni zəngin faktların həm bir-biri, həm də mövcud məlumatlarla müqayisəsi, müasir elmi metodlara dayanaraq təhlil olunması, hər cəhətdən obyektiv ümumiləşdirmələrin aparılmasıdır. Erməni məsələlərinin ortaya çıxması prosesini bütün təfsilatı ilə (və konkret mənbələr əsasında) ardıcıl izləyən, həmin məsələnin tarixi köklərini (və konyunktur maraqlardan doğduğunu) müəyyənləşdirən müəllif, nəticə etibarilə, istismarçı xarakterini də sübut etmiş olur. Mahiyyət isə əsasən bundan ibarətdir ki, erməni istəklərinin inersiyasını idarə edən bir sıra imperiyalar, xüsusilə Çar Rusiyası (və onun varisləri) Türkiyəyə, eləcə də türk dünyasına qarşı erməni kartından həmişə istifadə etmiş, ermənilər isə həmin xidmətdən faydalanmağa çalışmışlar. Bu qarşılıqlı maraq alış-verişinin isə hansı faciələrə gətirib çıxardığı göz qabağındadır.

Üçüncü cəhət araşdırma müəllif Prof. Dr, Seyit Sertçeliyin geniş tarixçi erudisiyası, intellektual-metodoloji hazırlığı, yüksək humanizmi və milli təəssübkeşliyi ilə bağlıdır. O, yalnız ciddi bir elm adamının deyil, həm də böyük bir vətəndaşın (vətənpərvərin) işini görmüşdür".

Akademik Nizami Cəfərov tam əmindir ki, artıq müxtəlif dillərdə nəşr olunmuş fundamental "Erməni problemi" kitabının Azərbaycanca nəşri həm tarixçilərimiz, həm ümumən cəmiyyətimiz üçün həmin "məsələnin" fəlsəfəsini daha dərindən anlamaq baxımından əhəmiyyətli olacaqdır.

Yekun olaraq, Osmanlı dövlətini parçalamaq üçün böyük dövlətlər tərəfindən tətbiq edilən ermənilərlə bağlı siyasətlərlə günümüzdə həm Türkiyəni zəiflətmək, həm də Türk dünyasını (və Azərbaycanın torpaqlarını işğal etməklə) parçalamaq, öz siyasi məqsədlərini həyata keçirmək üçün tarixən sınanan metoddan sanki bir kardon kağızının ikinci nüsxəsi qədər bir-birinə bənzədiyi çox diqqətçəkicidir.

Bu tədqiqat, meydandakı oyunçularla pərdə arxasında istiqamətləndirənlərin fərqli güc dairələrinə mənsub mənfəət qrupları olduğunu ortaya qoyur, —deyən müəllifin araşdırmaları göstərir ki, min illərlə eyni torpaqlarda yaşayan və mədəni dəyərləri bir-biri ilə qaynayıb-qarışan xalqları süni təşəkküllərlə öz milli maraqları çərçivəsində, öz məqsədlərinə çatmaq üçün (müharibələr, terror, soyqırımı siyasəti həyata keçirməklə, etnik təmizləmə aparmaqla, insanlara qaçqın həyatı yaşatmaqla, günahsız qocaları, qadın və uşaqları qarlı-şaxtalı havalarda donub, dənizlərdə boğulub ölməyə vadar etməklə və s.) hər şeyi mümkün görən bir anlayışla millətləri, xalqları bir-birinə qarşı qaldıraraq ayırmağa çalışan qlobal aktyorların uğursuz olmaları üçün tarixdən dərs alınması lazım olduğunu regionda və dünyada başverən prosesləri də deyir.

**Şükür ƏLİZADƏ,**
**"Respublika".**

# ÖMRÜN MÜDRİKLİK ZİRVƏSİ



**Elə adam var ki, uzun illər ünsiyyətdə olduğundan, yalnız onunla lap uzaqlara - gənclik illərinə gedib çıxa bilirsən. Elə adam var ki, ondan yazanda elə bilirsən ki, elə özündən yazırsan... Mənim üçün elə adamlardan biri indi ömrünün 70 ilini şərəflə arxada qoyan, gəncliyini, enerjisini, istedad və qabiliyyətini xərcləyə-xərcləyə böyük nüfuz sahibinə çevrilən Nizami Xudiyevdir... O, mənim gözümün qabağında həyat və elm yollarında inamla addımlayıb. Komsomol təşkilat katibi, universitet həmkarlar təşkilatının sədri, prorektor, rektor, Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri vəzifəsində çalışıb. Namizədlik, doktorluq dissertasiyaları müdafiə edib, professor, Əməkdar Elm xadimi olub, millət vəkili kimi səmərəli fəaliyyət göstərib, “Şöhrət” ordeninə layiq görülüb. Onun ailə qurduğu illəri də, övlad, oğul-uşaq, nəvə sahibi olanda necə sevindiyini də yaxşı xatırlayıram...**

Nizami Xudiyevin ömrünün ixtiyar çağında yazıb çap etdirdiyi “Ömürdən səhifələr” kitabını vərəqləyirəm. İlk səhifələri oxuyanda Nizaminin uşaqlığı, hansı mühitdə doğulub tərbiyə alması haqqında məndə dolğun təsəvvür yaranır. Gələcəkdə tələbə yoldaşım, dostum olacaq Nizaminin uşaqlığını görməsəm də, Azərbaycanımızın füsunkar bir parçası olan Naxçıvanı, Şahbuzu görməyim, Batabat yaylağında gəzməyim, heyranlıqla üzən adalara baxmağım, buludlarla günəş şüasının qarışığından yaranan heyrətamiz bir fonun ön planında Batabat gölünü, onun ətrafında gül-çiçəklə bəzənmiş dağları, yamacları seyr etməyim, Zor bulağın diş göynədən bumbuz suyundan içməyim, təzəcə çiçəkləyən yemşan çiçəklərinin ətrini sərin, təmiz dağ havası ilə birlikdə ciyərlərimə çəkməyim gənclik dostumun uşaqlığı haqqında təsəvvürümü əhəmiyyətli dərəcədə dolğunlaşdırmaq, təxəyyülümü zənginləşdirmək gücündəymiş...

İstər-istəməz xatirələr cığırı ilə ötən xəyali yox, real günlərə qayıdıram. Bu cığırla mən 1966-cı ilin sentyabrına qədər gedib çıxa bilirəm... Hay-küylü tələbəlik illəri, indi haqq dünyasında olan, sevimli müəllimimiz Əhəd Hüseynov demişkən, “əbədiyyətə qovuşan”, dərs aldığımız, söhbətlərini dinlədiyimiz, xarakterimizin formalaşmasında misilsiz xidmətləri olan insanlar: Şövqi Ağayev, Əbdüləzəl Dəmirçizadə, Feyzulla Qasımzadə, Məmmədhüseyn Təhmasib, Zeynal Tağızadə, Əhməd Seyidov, Əbdül Əlizadə, Fərhad Fərhadov, Məmmədsəlim Tahirli, İsmayıl Şıxlı, Sədi Əfəndiyev, Şərif Haqverdiyev, Mürsəl Həkimov, Cavad Bağırov, Abbasqulu Məhərrəmov, İmran Babayev, Əhəd Əhmədov, Azər Hüseynov, Afad Qurbanov, Adilə Hacıyeva, Həsən Mirzəyev, Xeyrulla Məmmədov, Mustafa Mustafayev, Hüsü Quliyev, indi də ehtiramla görüşdüyümüz folklorşünas alim Paşa Əfəndiyev, dilçi Cəfər Cəfərov, tarixçi Bəşir Şüküroğlu... Aradan yarım əsrdən artıq vaxt keçsə də, həmin insanların hərəsinin özünəməxsus danışıq tərzi, hərəkətləri, hətta mimikaları belə yadıma düşür...

Nizami Xudiyevin xoşbəxtliyi ondadır ki, həmişə müəllimlərinin sevimli tələbəsi olub. Onun ictimai həyat və elm sahəsində uğurları N.Xudiyevə dərs deyən insanların qəlbini iftixar hissi ilə doldurub. Nizaminin müəllimlərindən professor Əbdül Əlizadənin, Afad Qurbanovun, Paşa Əfəndiyevin və başqalarının öz yetirmələri haqqında xoş sözlər söyləmələri təsadüfi səciyyə daşımır:

“Dərs dediyim tələbələrin bir çoxu ilə həmişə fəxr etmişəm. Onlardan biri də Nizami Xudiyevdir. Nizami ADPU-nun tarixində xüsusi yer tutan görkəmli şəxsiyyətlərdən biridir” (Ə.Əlizadə);

“Nizami olduqca mədəni, qayğıkeş insandır. İstər respublika daxilində, istərsə də xarici ölkələrdə keçirilən konfrans və simpoziumlardakı məruzə və çıxışlarında o, bir çox elm-nəzəri məsələlərə toxunur, dilçiliyimizin qarşısında duran müəyyən qlobal məsələlər ətrafında nüfuzlu söz deyir” (A.Qurbanov);

“Nizami Xudiyev mənim ən istedadlı, ən sevimli tələbələrimdən biri olub. Onun ədəbi dil tarixi haqqında kitabı bütün türk dünyasında məşhurdur. Nizami xalq üçün, dövlət üçün böyük işlər görür” (Paşa Əfəndiyev).

İnsana ən yaxşı dəyəri onu daim müşahidə edən insanlar tərəfindən verilir. Bu baxımdan dilçi alimlərdən Ağamusa Axundovun, Yusif Seyidovun, Nizami Cəfərovun, Həsən Balıyevin, Müseyib Məmmədovun, İsmayıl Məmmədovun, Vilayət Əliyevin, Buludxan Xəlilovun, ədəbiyyatşünaslardan Xasay Cabbarovun, İsa Həbibbəylinin, xalq yazıçıları Elçinin, Mövlud Süleymanlının, Cavad Heyətin, Ziyad Səmədzadənin, Mailə Muradxanlının, Ağalar Mirzənin və başqalarının fikirləri mənim üçün bir neçə baxımdan maraqlı göründü. Bütün bu fikir və mülahizələr Nizami Xudiyevin siyasi əqidəsinə, elminə, işgüzarlığına, şəxsiyyətinə verilən dəyərin göstəricisidir.

Nizami Xudiyevin şəxsiyyətinə, elminə, təşkilatçılıq qabiliyyətinə, əqidəsinə ən yüksək dəyəri isə ümummilli liderimiz Heydər Əliyev və onun ləyaqətli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev vermişdir. Nizamiyə etimad göstərilib böyük vəzifələr tapşırılması da, onun Əməkdar elm xadimi fəxri adı alması da, “Şöhrət” ordeni ilə təltif edilməsi də bu iki siyasi liderin adı ilə bağlıdır.

...Mətbuatda Nizami Xudiyev haqqında xeyli məqaləm dərc olunub. Bu məqalələrin hər birində dostumun portretinin əsas cizgilərini verməyə çalışmışam. Həmin məqalələri təzədən nəzərdən keçirirəm. Onların heç birini paralamağa, redaktə eləyib yeniləməyə əlim gəlmir... On il bundan qabaq Nizami Xudiyevin 60 illik yubileyi münasibətilə yazıb nəşr etdirdiyim “60 yaşın zirvəsindən baxanda” adlı məqalədən bir hissəni burda vermək qərarına gəldim:

“Ömür yolu yaradanın insana bəxş elədiyi ən gözəl hədiyyədir. Bu hədiyyədən isə hərə bir cürə istifadə edir, bəhrələnir. Hərə öz ömrünü, öz taleyini yaşayır. Xoşbəxt o adamdır ki, həyatının ixtiyar çağına ləyaqətlə çata bilir və ömrün zirvəsindən keçdiyi yollara baxanda ürəyi fərəh hissi ilə döyünür.

Bu günlərdə 60 yaşı tamam olan görkəmli dilçi alim, “Şöhrət” ordenli Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Nizami Xudiyev məhz belə insanlardan biridir. Yetmiş yaşın zirvəsindən baxanda şərəfli, ləyaqətli bir ömür yolunun səhifələri vərəq-vərəq canlanır insanın gözləri önündə.

*Ucalmaq - eşqimin əzəli, ilki,*
*Bir dəfə qıy vurmaq yüz ömrə dəyər.*
*Zirvə qartal üçün zirvə deyil ki,*
*Qartal yorulanda enər zirvəyə.*

Bəli, ömrün bu ucalığından baxanda adam istər-istəməz kövrəlir, ötənləri-keçənləri yada salmalı olur. Nizami Xudiyev də ömrün bu zirvəsinə alnıaçıq, üzüağ çıxan, yüksək ad-san, şan-şöhrət, xətir-hörmət sahibinə çevrilən, övlad-nəvə sevinci dadan bəxtiyar alimlərimizdəndir. Nizami Əməkdar elm xadimidir, “Akademik Yusif Məmmədəliyev”, “Abdulla Şaiq”, “Araz”, “İnam”, “Nailiyyət”, “Qızıl qələm” və s. mükafatların laureatı, Azərbaycan Yazıçılar Birliyinin, Azərbaycan Jurnalistlər Birliyinin, bir sıra nüfuzlu elmi təşkilatların, müdafiə şuralarının üzvüdür. O, respublikamızda böyük nüfuz sahibi olan ziyalılarımızdandır. Ancaq hamı kimi Nizami də bu zirvəyə asanlıqla gəlib çıxa bilməyib. Gərgin zəhmət, yuxusuz gecələr, xalqının, millətinin gələcəyinə böyük inam onu bu zirvəyə gətirib çıxarmışdır.

Naxçıvanın sayılıb-seçilən ziyalılarından birinin - uzun müddət Şərq qapısı” qəzetinin redaktoru işləmiş Manaf Xuduyevin ailəsində dünyaya göz açan Nizami uşaqlıq illərini Şahbuz rayonunda keçirib. Şahbuzun özünəməxsus təbiəti, Batabat gölünün gözəlliyi balaca Nizaminin qəlbində şeirə, sənətə, ədəbiyyata məhəbbət oyadıb. Orta məktəbi əla qiymətlərlə bitirən Nizami tərəddüd etmədən sənədlərini o zamanki Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun filologiya fakültəsinə verib. Bax, Nizami ilə mənim tanışlığım, dostluğum da o zamandan başlayıb.

1966-cı ilin sentyabr ayı idi. Respublikamızın ayrı-ayrı şəhərlərindən, rayonlarından, kəndlərindən ali təhsil almaq üçün Bakıya gələn gənclər hələ bir-birlərini yaxşı tanımırdılar. Nədənsə elə ilk gündən Nizami ilə dostlaşdıq, eyni partada əyləşdik, eyni yataqxanada qaldıq, kitabxanaya eyni getdik, dərslərə birlikdə hazırlaşdıq. Dörd illik tələbə həyatı bizi bir-birimizə çox yaxınlaşdırdı, doğmalaşdırdı. Elə buna görə də mən Nizamini bəlkə də hamıdan yaxşı tanıyıram. Onun qabiliyyəti, istedadı, zəhmətsevərliyi sayəsində tezliklə cilalandı. Seminar məşğələlərində Nizaminin dərs danışmağı, disputlarda, ədəbi gecələrdə, şair və yazıçılarla görüşlərdə çıxışları təkcə tələbələrin yox, müəllimlərin də çox xoşuna gəlirdi. Onun qiymət kitabçasını əlalar bəzəyirdi. Nizaminin bir dənə də olsun dördü yox idi. Özü də bu əla qiymətlərin ona yazan bilirsiniz kimlər idi? Akademik Feyzulla Qasımzadə, akademik Əbdüləzəl Dəmirçizadə, professorlardan Məmmədhüseyn Təhmasib, Fərhad Fərhadov, Zeynal Tağızadə, Afad Qurbanov, Paşa Əfəndiyev, xalq yazıçısı İsmayıl Şıxlı, görkəmli tənqidçi Əhəd Hüseynov...

Nizami həm dərslərini yaxşı oxuyur, həm institutun ictimai həyatında fəal iştirak edir, həm Tələbə Elmi Cəmiyyətinin xətti ilə araşdırmalar aparır, ilk elmi məqalələrini yazıb çap etdirir, həm də voleybol yarışlarında oxuduğu ali məktəbin idman şərəfini qoruyurdu. Adama qəribə gəlirdi ki, bir belə işi bir adam necə çatırır, necə bu işlərin hamısında eyni dərəcədə uğur qazanır?

Nizamini yaxından tanıyanlardan biri kimi yaxşı bilirdim ki, bu nailiyyətlərin birinci səbəbi Nizaminin istedadı, qabiliyyəti, ikinci səbəbi isə onun həddindən artıq çalışqanlığı, zəhmətsevərliyi idi...

Ali təhsili əla qiymətlərlə başa vuran Nizami Elmi Şuranın Qərarı ilə “Azərbaycan dilçiliyi” kafedrasında müəllim saxlanıldı. 1978-ci ildə “Abdulla Şaiqin nəsr dili” mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi aldı, 1981-ci ildən kafedranın dosenti kimi səmərəli fəaliyyət göstərməyə başladı, tələbələrin sevimli müəllimlərindən birinə çevrildi. Elə həmin il Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı ilə təltif olundu.

Elmi araşdırmalarını uğurla davam etdirən Nizami Xudiyev 1990-cı ildə “Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişaf qanunauyğunluqları” mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri doktoru alimlik dərəcəsi aldı, elə həmin il professor elmi adına layiq görüldü.

Nizami Xudiyevin ümumdünya şöhrətli alim Lütfi Zadə adına Amerika Beynəlxalq Müasir Elmlər Akademiyasının, Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü seçilməsi, İngiltərənin Kembric Beynəlxalq Bioqrafiya Mərkəzi tərəfindən 2001-ci il üçün “İlin beynəlxalq ziyalısı” adına və “Qızıl medal”a, bir il sonra yenə həmin mərkəz tərəfindən “XXI əsrin intellektualı” adına layiq görülməsi, adının “XXI əsrin böyük ziyalıları” kitabına daxil edilməsi və sair bu kimi uğurlar heç də təsadüfi deyildir. Bunların hamısı onun yüksək intellektinin, işgüzarlığının, zəhmətsevərliyinin bəhrəsidir. Çünki Nizami Xudiyev Moskva, Nalçik, Bişkek, Ufa, Aşqabad, Daşkənd, Gülüstan, Alma-Ata, Ankara, Konya, İstanbul, İzmir, Adana, Konya və başqa şəhərlərdə keçirilən mötəbər elmi konfranslarda, qurultay və simpoziumlarda dərin elmi məzmunlu məruzələri ilə çıxış etmiş, dünyanın bir çox dilçi alimlərinin diqqətini cəlb etmişdir. Nizami Xudiyevin elmi əsərləri nəinki Azərbaycanda, eləcə də dünyanın müxtəlif ölkələrində dəfələrlə dərc edilmiş, elmi ictimaiyyətin diqqət mərkəzində olmuşdur.

Nizami Xudiyev çox məhsuldar bir alim, tədqiqatçıdır. Onun “Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişafı”, “Azərbaycan ədəbi dil tarixindən seminar məşğələləri”, “Azərbaycan ədəbi dilinin zənginləşmə yolları”, “Yazıçı dili və üslubu”, “Azərbaycan ədəbi dilinin sovet dövrü”, “Azərbaycan ədəbi dilinin tarixi”, “Azərbaycan ədəbi dilinin təşəkkülü”, “Tərcümə ədəbiyyatı və ədəbi dilimiz”, “Heydər Əliyev və Azərbaycan dili”, “Radio, televiziya və ədəbi dil”, “Xalqın İlhamı”, “Azərbaycan dilində şəxs adları” və sair bu kimi sanballı monoqrafiyaları Nizami Xudiyevin analitik təfəkkürünün, zəngin elmi və siyasi təxəyyülünün məhsullarıdır. Bu əsərlərdən respublikamızın elm və təhsil ocaqlarında dəyərli elmi mənbə, tədris vəsaiti kimi geniş istifadə olur.

Elə alimlər var ki, onlar ancaq elmi araşdırmalar aparmaqla məşğuldurlar. Lakin Nizami Xudiyev elə fenomenal şəxsiyyətlərdəndir ki, onun təşkilatçılıq qabiliyyəti, siyasi fəaliyyəti də həmişə diqqət mərkəzində olmuşdur. Hələ tələbə ikən institut gənclər təşkilatına rəhbərlik edən Nizaminin İnstitut Həmkarlar Təşkilatının sədri, Azərbaycan Respublikasının Milli Məclisinin deputatı seçilməsi də, prorektor, rektor, Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri təyin edilməsi də təsadüfi deyildi.

İndi Nizami Xudiyev də, mən də, digər tələbə dostlarımız da ömrümüzün ixtiyar çağlarını yaşayırıq. Nizami ADPU-da Ümumi dilçilik kafedrasına rəhbərlik edir. Yeni dilçi alimlərin hazırlanmasında bir elmi rəhbər, məsləhətçi, opponent kimi fəal iştirak edir... Yeni nəslin təlim-tərbiyəsi ilə məşğul olur... Ən əsası isə yenə də gənclik eşqi ilə yazıb-yaradır...

On dörd cildlik seçilmiş əsərləri bir istedadlı, zəhmətkeş alim ömrünün möhtəşəm, monumental abidəsidir. Yüzlərlə elmi məqalənin, xeyli sayda monoqrafiyanın, dərsliyin müəllifi olan Nizami Xudiyev təkcə ölkəmizdə deyil, onun hüdudlarından da kənarda əsərləri nəşr edilən, tanınan, xalqımızı hər yerdə ləyaqətlə təmsil etməyi bacaran ziyalılarımızdandır.

...70 yaşını qeyd etməyə hazırlaşan dostum Nizami Xudiyevlə onun kabinetində əyləşib söhbətləşirik... Müdrik bir qocayla, el ağsaqqalıyla, nüfuzlu ziyalıyla üz-üzə dayansam da, onun gənclik illərini xatırlayıram. Bu qədər keşməkeşli, ağrılı-acılı, sevgili-sevincli ömür yolu keçsə də, ürəyindəki, düşüncəsindəki uşaq sadəlövhlüyü həm məni təəccübləndirir, həm də sevindirir. Zaman onun üzünə qırışlar, keşməkeşli ömür yolu ürəyinə gözəgörünməz çatlar salsa da, gözlərindəki ümid işıqları yenə də gənclikdə olduğu kimi bərq vurur.

Yetmiş yaşın mübarək, əziz dost!

**Rafiq YUSİFOĞLU,**
**Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, şair, filologiya elmləri doktoru, professor.**

# Ümumi təhsil müəssisələrində I sinfə uşaqların elektron qeydiyyatına start verilib

Martın 13-dən 2019-2020-ci tədris ili üçün elektron sistem vasitəsilə dövlət ümumi təhsil müəssisələrinin I sinfinə şagird qəbuluna start verilib. Təhsil nazirinin imzaladığı əmrə əsasən, 2019-2020-ci dərs ilində Bakı ilə yanaşı, Gəncə, Sumqayıt, Mingəçevir, Şirvan, Naftalan şəhərləri, Abşeron, Samux, Yevlax rayonları üzrə ümumi təhsil məktəblərində I sinfə şagird qəbulu elektron sistem vasitəsilə həyata keçirilir. Bu rayonlarda yerləşən məcburi köçkün məktəblərinin I siniflərinə qəbul da elektron sistem vasitəsilə aparılacaq.

Ümumi təhsil məktəblərinin I siniflərinə qəbul prosesi www.mektebeqebul.edu.az saytı vasitəsilə aparılır. Məktəbəhazırlıq qruplarındakı uşaqların I sinfə qeydiyyatına ehtiyac yoxdur. 2018-2019-cu tədris ilində məktəbəhazırlıq qruplarında təhsil alan uşaqlar üçün I sinfə şagird qəbulu sistemində avtomatik elektron sorğu yaradılıb.

Qeydiyyat valideynin (qanuni nümayəndənin) özü tərəfindən onlayn və ya müəyyən olunmuş məktəblərdə yaradılacaq Alternativ qeydiyyat mərkəzlərində aparılır. Bakı üzrə valideynlərə kömək məqsədilə 50 Alternativ qeydiyyat mərkəzi yaradılıb. Ümumilikdə elektron sistem tətbiq edilən şəhər və rayonlar üzrə 82 Alternativ Qeydiyyat Mərkəzi fəaliyyət göstərir.

2019-2020-ci tədris ilindən etibarən xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün qəbul da elektron formada həyata keçirilir. “Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” Azərbaycan Prezidentinin 23 may 2011-ci il tarixli Fərmanının tələblərinin həyata keçirilməsini təmin etmək məqsədilə I sinfə şagird qəbulu elektron sistem vasitəsilə həyata keçirilir. Bu, təhsil sahəsində əhaliyə göstərilən elektron xidmətlərin dairəsinin genişləndirilməsi, şəffaflığın təmin edilməsi, şagird kontingentinin uçot sisteminin təkmilləşdirilməsi, valideynlərin əlavə vaxt itkisinin qarşısının alınması və cəmiyyətdə informasiya texnologiyalarından istifadə göstəricilərinin artırılması məqsədlərinə xidmət edir.

**Əli SADIQOV,**
**“Respublika”.**

# DÜNYA BUGÜN

*FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR*

## NETANYAHU: ALTI MÜSƏLMAN ÖLKƏSİ İLƏ DANIŞIQLAR APARIRIQ



İsrailin baş naziri Benyamin Netanyahu qısa müddət əvvəl qədər “düşmən” kimi qəbul etdikləri altı müsəlman ölkəsi ilə danışıqlar apardıqlarını bəyan edib. “TRT” telekanalının verdiyi xəbərə görə, bu barədə Benyamin Netanyahu 1967-ci ildə baş verən “Altıgünlük müharibə” zamanı İsrailin baş naziri vəzifəsini icra edən Levi Eşkolun anım mərasimində çıxış edib.

İsrail baş naziri çıxışı zamanı bildirib ki, qısa müddət əvvələdək düşmən olaraq qəbul etdiyimiz altı müsəlman ölkəsi ilə danışıqlar aparırıq.

Bununla yanaşı, Benyamin Netanyahu adını açıqlamadığı bu ölkələrlə aparılan danışıqların sülh prosesi üçün çox əhəmiyyətli olduğunu vurğulayıb.

Netanyahu İsrail ictimaiyyətinin ərəb ölkələrilə münasibətlərin normallaşmasının yalnız kiçik bir qismini görə bildiyini, əksər danışıqların isə gizli şəkildə davam etdiyini açıqlayıb.

Qeyd edilir ki, ABŞ rəhbərliyi ilə Polşanın paytaxtı Varşavada fevralın 13-14 tarixlərində keçirilən “Orta Şərqdə Sülh və Təhlükəsizliyin Gələcəyi” adlı konfransda İsrailin baş naziri Benyamin Netanyahu ilə yanaşı, Birləşmiş Ərəb Əmirlikləri, Bəhreyn, Qətər, Oman və Yəmənin xarici işlər nazirləri iştirak etmişdi. Konfransda Səudiyyə Ərəbistanını xarici əlaqələr üzrə dövlət naziri, Küveyti isə xarici işlər nazirin müavini təmsil etmişdi.

## XÜSUSİ NÜMAYƏNDƏ: ABŞ ƏFQANISTANDAN ÇIXMAĞA RAZIDIR



“ABŞ qoşunlarını Əfqanıstandan çıxarmağa razılıq verib”. “Report” agentliyinin məlumatına görə, bunu ABŞ-ın Əfqanıstan məsələləri üzrə xüsusi nümayəndəsi Zalmay Xəlilzad özünün “Twitter” səhifəsində yazıb.

Xüsusi nümayəndənin sözlərinə görə, ABŞ nümayəndələri ilə “Taliban” qruplaşmasının təmsilçiləri arasında Qətərin paytaxtı Dohada keçirilən altı günlük danışıqların sonunda bu barədə razılıq əldə olunub.

Eyni zamanda, Zalmay Xəlilzad qeyd edib ki, problemin dinc yolla tənzimlənməsi üçün dörd vacib məsələ həllini tapmalı idi: “Əfqanıstandaxili dialoq, atəşkəs, “Taliban”ın başqa terror təşkilatları ilə əməkdaşlığını kəsməsi və ABŞ qoşunlarının çıxarılması. Bu ilin yanvarında keçirilən danışıqlarda biz dörd məsələnin müzakirəsi ilə bağlı razılıq əldə etmişdik. İndi isə biz layihənin iki bəndini razılaşdırdıq”.

Zalmay Xəlilzad bildirib ki, ABŞ qoşunlarının Əfqanıstandan çıxarılması müddəti və terrorçuluğa qarşı mübarizə tədbirləri barədə rəsmi Vaşinqtonla taliblər arasında əlavə razılşma olacaq. Onun sözlərinə görə, növbəti mərhələdə razılşmanın Vaşinqtonda müzakirəsi və digər tərəfdaşlarla məsləhətləşmə aparılacaq.

Bununla yanaşı, görüşün nəticəsi barədə “Taliban” nümayəndələri bildiriblər ki, iki məsələ üzrə yanvarda əldə edilən razılaşmanın Dohada daha geniş müzakirəsi aparılıb.

Verilən xəbərə görə, Əfqanıstan Milli Ordusu Baş Qərargahının yeni rəisi general-leytenant Bismillah Vəziri isə “Taliban” və İŞİD döyüşçülərinin əsir götürülməməsinə dair əmr verib: “Onları əsir götürüb, yedirtmək üçün xalqın artıq vəsaiti yoxdur”.

## “SARI JİLETLİLƏR”ə QARŞI QANUN LAYİHƏSİ TƏSDİQLƏNİB



Fransa parlamentində nümayişçilərə qarşı sərt cəzalar nəzərdə tutan qanun layihəsini qəbul edilib. Qərarın əleyhinə 115 nəfər, lehinə 210 nəfər səs verib, 18 parlamentari isə bitərəf qalıb. “TRT” telekanalının məlumatına görə, layihə qüvvəyə minməzdən əvvəl Fransa Konstitusiya Məhkəməsi tərəfindən nəzərdən keçiriləcək.

Ölkənin daxili işlər naziri Kristof Kastaner bu işin əməliyyatların başlanğıcı olduğu iddialarına qarşı çıxaraq deyib: “Konstitusiya Məhkəməsinin bu qərar layihəsini araşdırması bütün şübhələri ortadan qaldıracaq”.

Qeyd edək ki, hökumət yanvar ayında “sarı jiletlilər” aksiyalarındakı zorakılıq hadisələrinin qarşısını almaq üçün nümayişçilərə qarşı sərt cəzalarla bağlı qanun layihəsi hazırlamışdı. Buna əsasən, aksiyalarda maska taxan etirazçılara bir il həbs və 15 min avro pul cəzası təyin edilmişdi. Sonra bu cəzalar 6 ay həbs və 7500 avroya endirilmişdi.

Yeni qanun layihəsində icazəsiz mitinq edənlərin və aksiyalarda şiddət hadisələri törədənlərin də cəzalandırılması, o cümlədən mitinqlər zamanı meydana çıxan zərərin dəyərinin də nümayişçilər tərəfindən ödənilməsi nəzərdə tutulur.

Verilən xəbərə görə, Fransa hökuməti bu qərarlarla “sarı jiletlilər”ə qarşı mövqeyini sərtləşdirəcəyini göstərir.

Avropa Şurasının insan haqları üzrə komissarı Dunya Miyatoviç məsələyə münasibət bildirib: “Bu qanun layihəsi ifadə azadlığı və dinc toplaşnma hüququnu məhdudlaşdırmamalıdır. Belə həssas vəziyyətlərdə hökumət və deputatları məhdudiyyət qoymaqdan çəkinməyə, dialoqa gəlməyə, insan hüquqları və azadlıqlarına hörmət bəsləməyə çağırıram”.

## ABŞ RUSİYANIN “ŞİMAL AXINI-2” LAYİHƏSİNƏ QARŞI ÇIXIB




Rəsmi Vaşinqton istəmir ki, onun Avropada olan müttəfiqləri Rusiya qazından asılı olsun. “Sputnik” informasiya agentliyinin Rusiya mətbuatına istinadən verdiyi xəbərə görə, bunu Birləşmiş Ştatların dövlət katibi Mayk Pompeo bəyan edib.

“Biz istəmirik ki, bizim avropalı həmkarlarımız Rusiya qazından asılı olsun”, - deyən Mayk Pompeonun sözlərinə görə, Avropa ölkələri “Şimal axını-2” layihəsi ilə bağlı Rusiya qazından asılı olacaq.

Dövlət katibi əlavə edib ki, ABŞ öz müttəfiqlərinə elektrik enerjisi tədarükünün “diversifikasiyasını təmin etməyə” yardım etmək niyyətindədir.

Qeyd edək ki, Avropa Parlamenti bugünlərdə Brüssel ilə Moskva arasında siyasi münasibətlər haqqında qətnamənin lehinə səs verib. Qətnamədə qeyd olunur ki, “Şimal axını-2” Avropa İttifaqının Rusiya qazının tədarükündən asılılığını gücləndirir, daxili Avropa bazarını təhdid edir və Aİ-nin energetika siyasətinə və ya onun strateji maraqlarına uyğun gəlmir.

Məlumat üçün qeyd edək ki, 1220 kilometr uzunluğundakı “Şimal axını-2” qaz boru kəməri Baltik dənizindən keçməklə Rusiyadan Almaniyaya ildə 55 milyard kubmetr qaz nəql etmək gücünə malik olacaq. Rusiyanın “Qazprom” şirkəti bəyan edib ki, “Şimal axını-2” layihəsi 2019-cu ilin sonunadək başa çatdırılacaq.

## GÜRCÜSTAN HAVA MƏKANINI “BOEING 737” ÜÇÜN BAĞLAYIB



Gürcüstanın hava məkanında “Boeing 737-8 MAX” və “Boeing 737-9 MAX” tipli təyyarələrin uçuşu müvvəqəti dayandırılıb. “Report” agentliyinin verdiyi xəbərə görə, bu barədə Gürcüstanın Mülki Aviasiya Agentliyi məlumat yayıb.

Verilən xəbərə görə, müvafiq qərar sərnişinlərin və uçuşların təhlükəsizliyinin təmin edilməsi məqsədilə qəbul olunub. Qərar mart ayının 13-dən etibarən qüvvəyə minib.

Agentlikdən qeyd olunub ki, “Boeing 737 Max” tipli təyyarə Gürcüstanın Mülki Hava Gəmilərinin Dövlət Reyestrinə daxil edilməyib. Bu baxımdan, müvəqqəti məhdudiyyət hava nəqliyyatına əhəmiyyətli təsir göstərməyəcək.

Xatırladaq ki, martın 10-da Efiopiyada baş vermiş təyyarə qəzası nəticəsində 157 nəfər həlak olub. Əddis-Əbəbədən Nayrobiyə uçan “Boeing 737 MAX 8” Efiopiya paytaxtından, təxminən, 60 kilometr cənub-qərbdə yerə düşüb.

Qeyd edək ki, Avropa Aviasiya Təhlükəsizliyi Agentliyi (EASA) Aİ ərazisində “Boeing 737 MAX 8” və “Boeing 737-9 MAX” tipli təyyarələrin uçuşlarını müvəqqəti olaraq qadağan edib.

## KİTAB OXUMAQ ÖMRÜ UZADIR



Həftədə iki saat kitab oxumaq ömrün iki il uzanmasına səbəb olur. Bu qənaətə “Social Science and Medicine” nəşri tərəfindən 3635 nəfər arasında aparılan araşdırmanın nəticəsində gəlinib. “Sputnik” informasiya agentliyi Böyük Britaniya mətbuatına istinadən dünyanın ən çox kitab oxuyan ölkələrinin adlarını təqdim edir.

Məlumata görə, bu gün dünyada ən çox kitab oxuyan ölkə Hindistandır. Hindistanda adambaşına həftəlik kitab oxuma 10 saat təşkil edir. Ən çox kitab oxuyan ölkələr sırasında növbəti yerdə isə Tailand qərarlaşıb. Tailand əhalisi həftəlik təxminən 9 saatını kitab oxumağa həsr edib.

Eyni zamanda, bildirilir ki, Çində əhali həftənin 8 saatını, Filippin və Misirdə isə 7 saatını kitab oxumağa həsr edir. Siyahıda növbəti yerlərdə Çexiya, İsveç, Fransa, Macarıstan, Səudiyyə Ərəbistan, Polşa, Venesuela, Cənubi Afrika Respublikası, Avstraliya, İndoneziya, Argentina və Türkiyə qərarlaşıb. Türkiyədə isə kitab oxuyanlar həftəlik 6 saatını bunun üçün ayırırlar.

“UNESCO”nun rəqəmlərinə görə, türkiyəli vətəndaşların ehtiyac siyahısında kitab 235-ci yerdədir. Uşaqlara kitab hədiyyə edilməsinə görə isə Türkiyə 140-cı yerdə qərarlaşıb. Türkiyədən bir neçə pillə aşağıda yer alan Yaponiyada isə həfətlik kitab oxuma 4 saat təşkil edir. Qeyd edək ki, sözügedən siyahıda Azərbaycanın adı əks olunmayıb. ■

# Rusiyada jurnalist Səadət Qədirovanın sosial onlayn layihəsinə start verilib

Rusiyada azərbaycanlı jurnalist Səadət Qədirovanın müəllifi olduğu sosial onlayn layihəsinə start verilib.

AZƏRTAC xəbər verir ki, Səadət Qədirova TASS informasiya agentliyinin əməkdaşı, Rusiya Jurnalistlər İttifaqının üzvü, həmçinin AZƏRTAC-ın dəstəyi ilə nəşr olunmuş "Sumqayıt hadisələri barədə ilk mənbədən" kitabının müəllifidir. Onun forma və məzmun etibarilə unikal layihəsinin məqsədi fiziki imkanları məhdud, aztəminatlı və sosial müdafiəsi olmayan ailələrdən olan uşaqlara dəstək göstərməkdir.

Jurnalistin "@kadyrovaonline "Meçtı sbıvayutsya" (Arzular gerçəkləşir) adlı layihəsi YouTube kanalında həyata keçirilir. İctimai-siyasi həyatın bir çox sahələrindən olan məşhur xadimlərlə müsahibələr silsiləsi sayəsində tanınan müəllif öz ideyasını həyata keçirmək üçün yenidən söhbət formatına müraciət edib. Layihənin unikallığı ondadır ki, proqramın hər bir qonağına "Arzular gerçəkləşir" rubrikasında iştirak etməklə, bir uşağın istəyini yerinə yetirmək imkanı verilir.

Səadət Qədirova agentliyə müsahibəsində deyib: "Lotereya vasitəsilə qonaqlarımın hər biri qutudan uşağın arzusu yazılmış stiker çıxarır və bu istə-




yi yerinə yetirərək sehrbaza çevrilir. Çox xoş idi ki, bizim azərbaycanlı kişilər mənim layihəmdə bir yazı ilə kifayətlənmədilər və proqrama müraciət etmiş bütün uşaqlara hədiyyələr aldılar". Onun sözlərinə görə, əvvəlcə Azərbaycanın Xalq artisti Emin Ağalarov yaxşı mənada ssenarini "pozaraq", təkidlə qutunu çevirməyi və bütün uşaqlara hədiyyə almağı təklif edib. Bir gün sonra həmin xeyirxah hərəkəti Azərbaycanın xalq artisti Yusif Eyvazov da təkrarlayıb.

Nisbətən az bir müddətdə fəaliyyətə başlamasına baxmayaraq, artıq tanınmış incəsənət xadimləri, şou-biznes ulduzları, siyasətçilər və biznesmenlər müəllifin qonaqları olublar. Onların arasında Emin Ağalarov, Yusif Eyvazov, Soqdiana, siyasətçi İrina Xakamada, general-mayor Viktor Yeliseyev, rejissor Yeqor Konçalovski və başqaları var. Bütün bunlar işin başlanğıcıdır.

Layihənin müəllifi böyük planlarının olduğunu deyir: "İstərdim ki, hər şeydən əvvəl, ictimaiyyətin diqqətini sosial cəhətdən daha az müdafiə olunan uşaqlara cəlb edim. Eyni zamanda, onların parlayan gözlərini görəndə hədsiz zövq alıram, çünki həqiqətən arzular yerinə yetir. Həm də, əlbəttə, bir jurnalist kimi özümü müsahibə janrında təsdiq etməyə davam etmək mənim üçün çox maraqlıdır".

**AZƏRTAC**

# Azercell tələbələrə uğurlu karyera qurmaqda yardımçı olur




Fəaliyyəti boyunca daim tələbələrə dəstək olmaq məqsədilə müxtəlif proqramlar keçirən və karyera sərgilərində iştirak edən "Azercell Telekom" MMC növbəti dəfə tələbələrə uğurlu karyera qurmaqda yardımçı olub. Şirkət Bakı Ali Neft Məktəbi (BANM) və ASAN Könüllülük Məktəbinin "ASAN kadr" karyera mərkəzinin birgə təşkil etdiyi 2-ci "Karyera sərgisi"ndə iştirak edib. Əmək bazarında fəaliyyət göstərən aparıcı qurumların və yüzlərlə gəncin qatıldığı sərgidə Azercell-in İnsan Qaynaqları Departamentinin mütəxəssisləri işə qəbul olmaq istəyən məzun və tələbələrin suallarını cavablayıb, şirkətdə mövcud olan vakansiyalar, xüsusi olaraq tələbələr üçün keçirilən Tələbə Təqaüd Proqramı və Təcrübə Proqramları barədə geniş məlumat təqdim ediblər.

Qeyd edək ki, sərginin əsas məqsədi savadlı, bacarıqlı, təcrübəli və iş potensialı ilə fərqlənən gənclərin işlə təmin olunmalarına dəstək göstərmək, onlara müəssisələrdə mövcud iş vakansiyaları ilə yaxından tanış olmaq üçün şərait yaratmaqdır.



Daima gənclərin inkişafına yönəldilmiş layihələri ilə seçilən Azercell şirkəti bu istiqamətdə fəaliyyətini gələcəkdə də davam etdirəcək. ■

## Oğuz Rayon İcra Hakimiyyəti

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 2 lot üzrə keçirilir:**
**Lot 1:** Oğuz şəhərində abadlıq işləri:
**Lot 2:** Mal-materialın alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini hər lot üzrə ayrı-ayrılıqda möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər hər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Oğuz şəhəri, Heydər Əliyev küçəsi 89 küçəsi (Əlaqələndirici şəxs: Yunusov Elşən Oktay oğlu. Tel.: 024-20-5-23-19) ünvanından ala bilərlər.

**İştirak haqqı:**
**Lot 1 - 50 manat**
**Lot 2 - 30 manat**
*Oğuz YXO*
*VÖEN: 6600009111*
*H/H: AZ66AİİB32051019446800201168*
*Kapital bank Oğuz filialı*
*M/H: AZ37NABZ01350100000000001944*
*Kod: 200684*
*VÖEN 9900003611*
*SWİFT BİK: AİİİBAZ 2 X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*- Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*- İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*- Digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 19 aprel 2019-cu il saat 18:00-dək, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 02 may 2019-cu il saat 17:00-dək Oğuz şəhəri, Heydər Əliyev küçəsi-89 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 03 may 2019-cu il tarixində saat 15:00-da Oğuz şəhəri, Heydər Əliyev küçəsi-89 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**TENDER KOMİSSİYASI.**

## "AZERGOLD" QSC

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 lot üzrə keçirilir: XRF əl spektrometr avadanlığının satın alınması**

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi peşəkarlığa, təcrübəyə, texniki və maliyyə imkanlarına, işçi qüvvəsinə, idarəetmə səriştəsinə və etibarlığa malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra ödəniş sənədini və tenderdə iştirak etmək üçün rəsmi müraciət ərizəsini "AzerGold" QSC-nin Tender Komissiyasına (Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H, Əlaqələndirici şəxs: Aygül Tağıyeva, Tel.: 012-505-02-02 (dax.1108), I-V günlər, saat 09.00-dan 18.00-dək) təqdim etməklə Azərbaycan dilində tərtib olunmuş Əsas Şərtlər Toplusunu əldə edə bilərlər.

**İştirak haqqı: Lot 1 - 150 manat. İştirak haqqı heç bir halda geri qaytarılmır.**

*Hesab: AZ85PAHA38020AZNHC0190068658*
*VÖEN: 1403467421*
*Bank: "PAŞA Bank" ASC*
*Kodu: 505141*
*VÖEN: 1700767721*
*M/H: AZ82NABZ01350100000000071944*
*S.W.İ.F.T: PAHAAZ22*

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
